21 iyun 2024 №45 (2110)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan COP29-a var gücü ilə hazırlaşır

Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin fəlsəfi fikirlərini, mütərəqqi ideyalarını, ümumbəşəri dəyərləri və prinsipləri rəhbər tutaraq fəaliyyət göstərən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qısa zaman ərzində yüksək nüfuz və etimad qazanaraq dünyada aparıcı beynəlxalq təsisatlardan birinə çevrilmişdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşəbbüsləri, qlobal gündəlikdə duran aktual məsələlərin həlli istiqamətində təklif etdiyi yeni yanaşmalar beynəlxalq aləmdə təqdir edilir və yüksək dəyərləndirilir.




Bəşəriyyətin ortaq problemi olan iqlim böhranı və onun fəsadları ölkələrin dayanıqlı inkişafına və rifahına əngəl törətməklə yanaşı, sadə insanların da gündəlik həyatlarına və yaşam tərzlərinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Bu sözlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19–21 tarixlərində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "COP29-a aparan yol: dayanıqlı və davamlı gələcək" mövzusunda keçirilən Yüksək Səviyyəli 29-cu Toplantının iştirakçılarına ünvanlandığı müraciətində yer alıb.

davamı səh. 2-də

# Ölkəmiz Pekin Beynəlxalq Kitab Sərgisində ilk dəfə milli stendlə təmsil olunur

İyunun 19-da 30-cu Pekin Beynəlxalq Kitab Sərgisi işə başlayıb. Dünyanın bir çox ölkələrinin qatıldığı sərgidə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Çin Xalq Respublikasındakı səfirliyimizin dəstəyi ilə ölkəmiz ilk dəfə milli stendlə təmsil olunur. Stenddə ümumilikdə 133 adda 309 nüsxə kitab nümayiş etdirilir.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə bu il dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin (1494–1556) anadan olmasının 530 illiyi qeyd edilir. Mədəniyyət Nazirliyi tərəfindən yubileylə əlaqədar silsilə layihə və tədbirlər təşkil olunur. Sərgidəki stendimizdə Məhəmməd Füzulinin 530 illiyini əks etdirən banner qoyulub, həmçinin söz ustadının həyat və yaradıcılığına dair nəşrlər də yer alıb.

Burada Azərbaycan nümayəndə heyəti tərəfindən ölkəmizin tarixi, mədəniyyəti, kitab sənəti, o cümlədən Şuşa şəhərinin 2024-cü ildə "İslam dünyasının mədəniyyət paytaxtı" missiyasını yerinə yetirməsi barədə sərgi iştirakçılarına və ziyarətçilərə ətraflı məlumat verilir.




Sərgi çərçivəsində Azərbaycanın bir sıra yerli naşirlərinin iştirakı ilə milli stenddə Çin tərəfi ilə əməkdaşlıq görüşləri keçirilir.

Sərginin açılış mərasimindən sonra Azərbaycan nümayəndə heyəti Pekin Milli Kitabxanasında olub, kitabxana ilə əməkdaşlıq imkanları müzakirə edilib.

Bildirək ki, Səudiyyə Ərəbistanının fəxri qonaq ölkə olduğu Pekin Beynəlxalq Kitab Sərgisi iyunun 23-dək davam edəcək.

## Milli Məclis buraxılsın – növbədənkənar seçki keçirilsin

### Parlament çoxluğu Prezidentə müraciət edəcək

İyunun 20-də Yeni Azərbaycan Partiyası (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.

Partiyanın mətbuat xidmətindən verilən məlumata görə, iclasın gündəliyi barədə danışan YAP sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. 2020-ci ildə Vətən müharibəsində qazanılmış şanlı Zəfər nəticəsində Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinə son qoyulub, ölkəmizin ərazi bütövlüyü bərpa edilib, beynəlxalq hüququn norma və prinsiplərinin aliliyi təmin olunub. 2023-cü ilin sentyabrında həyata keçirilmiş antiterror tədbirləri nəticəsində qanunsuz silahlı birləşmələr zərərsizləşdirilib, kriminal xunta rejiminin fəaliyyətinə son qoyulub, dövlətimizin suverenliyi onun bütün ərazisində bərqərar edilib. Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri davam etdirilir, doğma yurd-yuvasından didərgin salınaraq illərlə məcburi köçkün həyatı yaşamağa məhkum olunmuş soydaşlarımız ləyaqətli şəkildə əzəli torpaqlarına qayıdırlar.

Diqqətə çatdırılıb ki, Azərbaycanın dünyada nüfuzunun daha da yüksəlməsinə daha bir bariz nümunə bu ilin noyabrında ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a ev sahibliyi olacaq.

Eyni zamanda 2024-cü ilin noyabrında Azərbaycan Konstitusiyasının 98.1-ci maddəsinə əsasən, Milli Məclisə növbəti seçkilər keçirilməlidir. Həm seçkilərin, həm də qeyd olunan tədbirlərin yüksək səviyyədə təşkili mühüm əhəmiyyət kəsb edir.

davamı səh. 2-də

## "Min bir gecə" – Çelyabinsk səhnəsində iki gecə

### Fikrət Əmirovun ölməz əsəri bu dəfə Azərbaycan balet ustalarının ifasında alqışlanıb

Rusiyanın Çelyabinsk şəhərində dünyaca məşhur balerina, SSRİ Xalq artisti Yekaterina Maksimovanın şərəfinə keçirilən XV balet festivalı başa çatıb. İyunun 17-dən 17-dək davam edən festivalda Azərbaycan və Başqırdıstan balet ustaları festivalın qonaqları qismində çıxış ediblər.

Nüfuzlu festivala ilk dəfə qatılan Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı iki gün – 14-15 iyunda Çelyabinsk Opera və Balet Teatrının səhnəsində Fikrət Əmirovun "Min bir gecə" baletini təqdim edib.

Rusiya mətbuatı bu tədbiri, o cümlədən Azərbaycan bəstəkarının əsərinin nümayişini diqqətdə saxlasa da, Çelyabinskin 1obl.ru portalı həm festivalın gedişini, həm də "Min bir gecə" baletinin nümayişini daha geniş işıqlandırıb.

"Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının tamaşasına yüzlərlə tamaşaçı yığışmışdı. Bəstəkar Fikrət Əmirov ərəb musiqisinin ritminin bütün zənginliyini öz musiqisində çatdırmağa nail olduğundan tamaşaçılar ksilofon, vibrafon, litavr, təbil və digər zərb alətlərinin səslərini eşidə bildilər. Orkestrin heyətinə



ənənəvi Azərbaycan simli aləti olan tar da daxil edilib. Bütün bu alətlər ənənəvi orkestr alətləri ilə birlikdə füsunkar Şərq tərənələri yaradırdı. Bu baletin yaşı 40-dan çox olsa da, Azərbaycan teatrı onu ilk dəfə Çelyabinsk səhnəsində oynayırdı" – saytdakı yazıda oxuyuruq.

davamı səh. 2-də

## Sənətkar ömrünün səhifələri

### Vəcihə Səmədovanın 100 illiyinə həsr olunan sərgi



Bu il XX əsr Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələrindən Əməkdar incəsənət xadimi Vəcihə Səmədovanın (1924–1965) anadan olmasının 100 illik yubileyidir.

Bu münasibətlə iyunun 20-də Azərbaycan Milli İncəsənət Muzeyində Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə "Vəcihə Səmədova – 100: sənətkar ömrünün səhifələri" adlı sərginin açılışı keçirildi.

Mərasimdə mədəniyyət nazirinin müavini Murad Hüseynov, mədəniyyət, incəsənət xadimləri, sənətkarın yaxınları və digər qonaqlar iştirak edirdilər.

Muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Şirin Məlikova sərgi haqqında məlumat verdi. Bildirdi ki, sərgidə rəssamın Milli İncəsənət Muzeyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının kolleksiyasına məxsus 60-a yaxın rəngkarlıq və qrafika əsəri nümayiş olunur. "İmtahandan qabaq", "Xəbər gözləyərkən", "Kəşfiyyatçı qocalar", "Azərbaycan toyu", "Kürün sahilində", "Leyla Bədirbəylinin portreti", "Geoloq M.Məmmədbəylinin portreti", "Memar Solmaz Səmədovanın portreti" və digər əsərlər müəllifin yüksək sənət duyumundan xəbər verir.

Azərbaycan Rəssamlar İttifaqı sədrinin birinci müavini Xalq rəssamı Səlhab Məmmədov V.Səmədovanın yaradıcılığından söz açdı.

Rəssamın nəvəsi Aqşin Mirfeyzullazadə ailələri adından tədbirin iştirakçılarına və təşkilatçılarına təşəkkür etdi.

Çıxışlardan sonra sənətkarın yaradıcılığı haqqında fikirlərin yer aldığı videoçarx nümayiş olundu.

Qonaqlar sərgi ilə tanış oldular. Sərgi noyabrın 25-dək davam edəcək.

## Gəncədə Bəstəkarlar İttifaqının səyyar plenumu



Bu il əsası dahi Üzeyir Hacıbəyli tərəfindən qoyulan Azərbaycan Bəstəkarlar İttifaqının 90 ili tamam olur.

Bu yubiley musiqi mədəniyyətimiz üçün də böyük bir hadisədir. Çünki ötən illərdə böyük istedadı, yüksək professional savadı və zəngin yaradıcılığı olan bir neçə bəstəkar nəsli yetişib ki, Azərbaycan Bəstəkarlar İttifaqı da onların yaradıcılıq məkanı olub. İttifaqın üzvləri daim bu məkanda toplaşaraq öz yaradıcılıq mübadilələri ilə bərabər, Azərbaycan musiqi mədəniyyətinin inkişafına dair fikir və mülahizələr irəli sürərək bu istiqamətdə töhfələrini vermişlər. Təşkilatın ölkəmizin müxtəlif bölgələrində də fəaliyyət göstərən bölmələri var. Şuşa, Naxçıvan, Lənkəran, Gəncə bölmələrində həmin regionlarda yaşayan bəstəkar və musiqişünaslar geniş fəaliyyət göstərmişlər və indi də bu istiqamətdə mühüm işlər görürlər.

90 illik yubiley çərçivəsində Bəstəkarlar İttifaqının ilk səyyar plenumu Gəncədə gerçəkləşdi. Dahi Nizaminin, ölməz bəstəkarlarımız Fikrət Əmirovun, Qəmbər Hüseynlinin, Telman Hacıyevin doğulub, boya-başa çatdıqları Gəncə. Vaxtilə Üzeyir Hacıbəyli bu qədim diyara tez-tez gələrmiş və hətta Fikrət Əmirovun atası, dostu Məşədi Cəmil Əmirovla Gəncənin musiqi həyatına böyük töhfələr vermişlər. 1923-cü ildə Gəncədə açılan ilk musiqi məktəbi buna misaldır. İndi həmin məktəb Fikrət Əmirovun adını daşıyır. Daha bir möhtəşəm musiqi ocağı var ki, onun da əsasını dahi Üzeyir Hacıbəyli qoyub. 1935-ci ildə yaranan Gəncə Dövlət Filarmoniyası. Bu faktları ona görə diqqətə çatdırırıq ki, Bəstəkarlar İttifaqının 90 illiyi çərçivəsində səyyar plenumun Gəncədən başlanması təsadüfi deyil.

davamı səh. 3-də

## Siz də deyin: toya gələn oynasın...

Milli statusundan sonra Dövlət Gənc Tamaşaçılar Teatrına ilk gəlişimdir. Tələsirəm. Üstəlik, şəhər tıxaclı və istidir. Özümü xidməti qapıdan içəri atıb təzəcə nəfəs dərmişdim ki, teatrın əsl teatral əməkdaşı Səhnə xanımın tanış təbəssümü ilə birbaşa zala keçdim. Özü də səhnədən.

Əli ayağına dolaşan çağırılmamış qonaq tövründə atdım özümü yarıqaranlıq zala. Burada ortam çöldəkindən betərdir. Rejissor Nicat Kazımov pul kimi qızarıb. Heyəti də. Hiss olunur yorulublar. Bu məqam eşidirəm ki, saatlardır məşq edirlər. Toya çox az – təxminən bir həftə qalıb deyə əsl vur-çatlasındı. Direktor Naidə İsmayılzadə də zaldadır. İstər-istəməz, baş məşq hesab oluna bilər.

...Vaxtsız qonaq olsam da, nə dəxli, toya gəlmişəm. Amma bu toy, o toylardan deyil. "Fiqaronun toyu"dur!

Əvvəldən deyim ki, Pyer Bomarşenin pyesi əsasında yazılmış libretto və V.A.Motsart musiqisi ilə zaman-zaman bizim Akademik Opera və Balet Teatrında da tamaşaçını məftun edən bu toydan çətin kimsə narazı qala. Baxmayaraq ki, məkan da, yozum da fərqlidir. Elə o ümidvarlıqla Nicat Kazımovun quruluşunda (həm də səhnə redaktəsində) hazırlanan "Fiqaronun toyu"nun da uzunömürlülüyünə inanıram. Bu, öz yerində.

Amma məşqə gəlmədən öncə öz-özümə xeyli suallar da vermişdim. Müasir tamaşaçı bu klassik opera əsərinə tamaşa kimi necə baxacaq? Aktyorlar çeviklik, balet artistinə xas incə xoreoqrafik elementlər istəyən əsərin mizan bölgüsünə nə dərəcədə adekvat olacaqlar?...

davamı səh. 5-də



Təmir-bərpa və abadlıq işlərinə nəzarət edilir

səh. 2



Məktəblərin sənət hesabatları

səh. 4

№45 (2110)
21 iyun 2024
www.medeniyyet.az

# Azərbaycan COP29-a var gücü ilə hazırlaşır

## İnklüziv və dayanıqlı dünya naminə həmrəyliyi gücləndirmək üçün səylərimizi əsirgəmirik

əvvəli səh. 1-də

Müraciətdə qeyd olunur ki, Azərbaycan Respublikası ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a var gücü ilə hazırlaşır, yaşıl, ədalətli, inklüziv və dayanıqlı dünya naminə həmrəyliyi gücləndirmək, planetimizin gələcəyi üçün müsbət nəticələr əldə etmək üçün səylərini əsirgəmir.

"Bəşəriyyəti narahat edən iqlim dəyişmələrinə qarşı mübarizədə ölkəmiz digər dövlətlərlə birgə əməkdaşlıq çərçivəsində ağıllı həllər tapmağa çalışacaq, eyni zamanda, biz töhfə vermək istəyən qeyri-hökumət təşkilatları və beyin mərkəzləri ilə əməkdaşlığa açığıq. Bu baxımdan, COP29-a hazırlıqla bağlı Bakı və işğaldan azad edilmiş Zəngilan şəhərlərində üç gün davam edəcək bu tədbir çərçivəsində Mərkəzin dəyərli üzvlərinin və tərəfdaşlarının bizimlə zəngin təcrübələrini və biliklərini bölüşərək dəstək göstərmək səylərini yüksək qiymətləndirirəm", – deyə müraciətdə vurğulanır.

Bildirilir ki, bu mötəbər tədbirin sədrliyini öz üzərinə götürən Azərbaycan bütün tərəflərlə səmimi və nəticəyönümlü dialoq quraraq COP prosesini irəli aparmaq, səmərəli iqlim fəaliyyətini təmin etmək və COP29-un uğurlu nəticələrlə yekunlaşması üçün əlindən gələni edəcək.

Dövlətimizin başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi toplantının COP29-a hazırlıq mərhələsində iqlim fəaliyyəti gündəliyinin irəli aparılmasına və planetimiz üçün həyati vacib olan qərarların qəbul edilməsinə öz töhfəsini verəcəyinə inandığını bildirib və onun işinə uğurlar diləyib.




***

Qeyd edək ki, dövlətimizin başçısının müraciətini "COP29-a aparan yol: Dayanıqlı və davamlı gələcək" mövzusunda Yüksək Səviyyəli 29-cu Toplantının açılış mərasimində Prezidentin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oxuyub.

Mərasimdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" təqdim edilib.

Tədbirə moderatorluq edən İ.Serageldin bildirib ki, Kyoto Protokolunun bağlanmasından 30 ilə yaxın müddət keçib. Geriyə baxsaq, 1997-ci ildə iqlim tullantılarının qarşısını almaq üçün ilk səylərin başladığı zamanla indiki vaxt müqayisə oluna bilməz. Bu gün qlobal istiləşmə, iqlim dəyişikliyi bütün bəşəriyyət üçün çox ciddi problemdir.

COP29-un prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev çıxışında diqqətə çatdırıb ki, ötən aylar ərzində komandamız müvafiq beynəlxalq təşkilatların rəhbərləri ilə geniş və dərin məsləhətləşmələr aparıb. İqlim dəyişikliyi üçün hər kəsi ortaq həllər tapmağa səsləmək, bütün fikirləri eşitmək vacibdir.

BMT Baş Assambleyası 73-cü Sessiyasının prezidenti, Ekvadorun sabiq xarici işlər və müdafiə naziri Maria Fernanda Espinoza COP29-a hazırlıq məqsədilə təşkil olunan toplantının əhəmiyyətini vurğulayıb. Bildirib ki, COP29-un uğuru təkcə Azərbaycanın uğuru olmayacaq. İnanırıq ki, tədbir prosesə inamı və legitimliyi gücləndirəcək.

CGIAR şirkətinin icraçı direktoru, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının sabiq baş elmi işçisi İsmahane Elouafi qeyd edib ki, COP29-da müzakirə olunacaq məsələlər problemdən həll yollarının tapılması istiqamətində çox vacibdir: "Ümid edirəm ki, gələcək nəsillərə dünyanı daha sağlam və yaşanıla biləcək bir yer olaraq ötürə bilərik".

İqlim dəyişikliyi probleminin həlli üçün təcili birgə fəaliyyət göstərməyin vacibliyini qeyd edən Dünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesus tədbir iştirakçılarına videomüraciəti zamanı diqqətə çatdırıb ki, iqlim dəyişikliyi probleminin həlli üçün təcili birgə fəaliyyət lazımdır. Biz birlikdə davamlı həll yollarına marağı artıra və gələcək nəsillər üçün daha sağlam dünya yarada bilərik.

"İqlimin mülayimləşdirilməsindən əldə olunan gəlirlərlə hər il milyonlarla insanın həyatını xilas edə bilərik. Xərclənən hər 1 dollar 4 dollardan çox gəlir gətirə bilər. Bu tədbirlərə həssas insanları istilik dalğalarının təsirindən qorumaq, səhiyyə müəssisələri üçün bərpaolunan enerjiyə sərmayə qoymaq, ətraf mühiti çirkləndirən yanacaqlara subsidiyaların verilməsini dayandırmaq daxildir", – deyə o vurğulayıb.

Bəşəriyyətin iqlim dəyişikliyinə və bu qlobal problemin həlli yolunda hərəkətsizliyə görə fəlakətin astanasında olduğunu diqqətə çatdıran BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos videomüraciətində planetin geosiyasi parçalanmanın girovuna çevrilə biləcəyindən narahatlığını ifadə edib: "Unutmayaq ki, problemin həlli təkcə iqlimə deyil, iqtisadi rifaha və davamlı inkişafa da kömək etmək imkanı yaradır. İqlim dəyişikliklərini həll etmək planeti və həssas insanları qorumaq deməkdir".

Tədbirə videoformatda qoşulan BMT-nin İnsanın immun çatışmazlığı virusu üzrə Birgə Proqramının (UNAIDS) icraçı direktoru Vinni Byanyima, Finlandiyanın sabiq dövlət başçısı Tarya Halonen, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) baş direktorunun müavini Nəcat Moxtar, Böyük Britaniyanın sabiq baş naziri Qordon Braun iqlim dəyişikliyi ilə bağlı fikirlərini bölüşüblər.

Tədbir işini panel iclaslarla davam etdirir.

Qeyd edək ki, 8 paneldən ibarət və 100-dək qonağın iştirak etdiyi tədbirin ilk günündə "Çağırışın statusunun icmalı", "Balanslaşdırma, azaltma, uyğunlaşma və davamlılıq" və "İqlim dəyişikliyi və onun su, biomüxtəliflik və ərzaq təhlükəsizliyi ilə əlaqələri" mövzusunda panel müzakirələr aparılıb.

***

İyunun 20-də, toplantının ikinci günündə Monteneqronun sabiq müdafiə naziri Miliça Peyanoviç-Durisiçin moderatorluğu ilə "Elm, texnologiya və innovasiyanın rolu" mövzusunda panel keçirilib.

O bildirib ki, biz hazırda elm, texnologiya və innovasiyaların inqilabi dəyişikliklərinin yaratdığı inanılmaz zamanda yaşayırıq. Yeni biologiya, İKT və süni intellektin fövqəladə vəziyyətindəki inqilablar, bütün imkanlar artıq əlçatandır. Bütün bunların iqlim dəyişikliyi fonunda gələcək nəsillərə necə çatdırılmasının və ancaq faydalar üçün istifadə etməyin yollarını tapmaq əsas məqsədimizdir.

Qırğızıstanın sabiq baş naziri Comart Otorbayev bildirib ki, ölkəni innovasiyalar məkanına çevirmək üçün İKT sektorunda çalışan mütəxəssislərin kritik kütləsini toplamaq şərtdir. O, COP29-un bu baxımdan önəmli platforma olacağını deyərək Azərbaycanın bunun öhdəsindən uğurla gələcəyinə əminliyini ifadə edib.

Rumıniyanın sabiq baş naziri Petre Roman Xəzər dənizinin suyunun getdikcə azalmasının son illərdə böyük narahatlıq doğurduğunu qeyd edib. Bildirib ki, Xəzərin əsas qida mənbəyi olan Volqa çayının axınında da azalma müşahidə edilir.

AEBA-nın Nüvə elmləri və tətbiqləri departamentinin koordinatoru Jan-Pyer Kayol vurğulayıb ki, innovasiyaların artırılması iqlim dəyişikliyi ilə bağlı qlobal prosesdə həlledici rol oynayacaq. Bu baxımdan COP29-u yaxşı fürsət kimi dəyərləndirmək olar.

Toplantının digər panelləri "Ərzaq və kənd təsərrüfatı sektorunun xüsusi vəziyyəti", "İqlim dəyişikliyinə və Davamlı İnkişaf Məqsədlərinə cavabımızın maliyyələşdirilməsi", "Eyni planet, eyni sağlamlıq: davamlı gələcək üçün birləşmək" və "Azərbaycanın öz təcrübəsindən dərslər", "Siyasət: Lobbiçilər, gənclər, qadın qrupları, fəallar və ictimaiyyətin iştirakı" mövzularına həsr olunub.

İşini iyunun 21-də yekunlaşdıracaq tədbirin iki paneli Zəngilan rayonunda təşkil olunacaq.

# Milli Məclis buraxılsın – növbədənkənar seçki keçirilsin

əvvəli səh. 1-də

Bundan əlavə, həmin dövrdə ölkə parlamentinin tam fəaliyyətdə olmasının məqsədəmüvafiqliyi də nəzərə alınmalıdır. "Altıncı çağırış Milli Məclis fəaliyyət dövrü ərzində dövlətin daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləmək, dövlət idarəetməsinin təşkili və daha da təkmilləşdirilməsi fəaliyyətində yaxından iştirak etmək, yerlərdə seçicilərlə müntəzəm iş aparmaq, həmçinin parlament diplomatiyasının verdiyi imkanlardan səmərəli istifadə olunması sayəsində milli maraqları beynəlxalq məkanda təəssübkeşliklə təmsil etməklə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışıb. Hesab edirik ki, indiki şəraitdə də Milli Məclis dövlət maraqlarını üstün tutaraq Milli Məclisin buraxılması və seçkilərin daha erkən keçirilməsi təşəbbüsü ilə çıxış etməlidir", – deyə o vurğulayıb.

YAP sədrinin müavini Əli Əhmədov, YAP İdarə Heyətinin üzvləri Hikmət Məmmədov, Musa Quliyev, Elşad Mirbəşiroğlu, Kamal Cəfərov, Anar İsgəndərov, Tahir Mirkişili və Bahar Muradova parlament seçkilərinin önə çəkilməsinin məqsədəuyğunluğunu əsaslandıraraq məsələyə münasibət bildiriblər.

Sonda YAP-ı Milli Məclisdə təmsil edən deputatlara altıncı çağırış Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Prezidentinə müraciət olunması üçün təşəbbüs göstərmələrinin tövsiyə olunması barədə yekdil qərar qəbul edilib.

# "Min bir gecə" – Çelyabinsk səhnəsində iki gecə




əvvəli səh. 1-də

Tamaşanı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru Əməkdar artist Əyyub Quliyevin idarəsilə Çelyabinsk teatrının orkestri müşayiət edib. Əsas partiyaları teatrın aparıcı solistləri Fatimə Xələfova, Ayan Eyvazova və İlya Mananenkov ifa ediblər.

1obl.ru portalı bizim tamaşa haqqında həm sıravi tamaşaçıların, həm də peşəkar musiqiçilərin ürəkaçan fikirlərinə, tamaşadan fotolara da yer verib.

İyunun 17-də isə "Yekaterina Maksimovanın şərəfinə" festivalı möhtəşəm qala-konsertlə yekunlaşıb.

Azərbaycanın balet artistləri də qala-konsertdə iki nömrə ilə çıxış ediblər. Fatimə Xələfova və İlya Mananenkov "Min bir gecə" baletindən Şah Şəhriyarla Şəhrizadın adajiosunu ifa ediblər. Daha sonra Ayan Eyvazova və İlya Mananenkov A.Məlikovun "Məhəbbət əfsanəsi" baletindən Məhminə banu ilə Fərhadın duetini təqdim ediblər.

Bizim balet artistlərinin çıxışları, iki Azərbaycan bəstəkarının möhtəşəm baleti ilə yanaşı, festivalın bağlanışında daha bir bəstəkarımızın əsəri səslənib. Konsertdə ən güclü alqışı Çelyabinsk teatrının solistləri Liri Vakabayasi və Kubanıç Şamakeyevin ifasında Nazim Əliverdibəyovun "Muğam" miniatürü qazanıb.

**Gülcahan Mirməmməd**

# Ölkəmiz Asiya Mədəni İrs Alyansının Baş Assambleyasında təmsil olunub

19-20 iyun tarixlərində Çin Xalq Respublikasının (ÇXR) Çindao şəhərində Asiya Mədəni İrs Alyansının (ACHA) 2-ci Baş Assambleyası keçirilib.

Mədəniyyət Nazirliyinin Beynəlxalq təşkilatlarla əməkdaşlıq sektorunun müdiri Araz Bağırlı və mədəni irs sahəsində tanınmış ekspert Rizvan Bayramov tədbirdə iştirak ediblər.

Xatırladaq ki, ÇXR Prezidenti Si Cin Pinin təşəbbüsü ilə yaradılmış alyansın ötən il keçirilmiş ilk Baş Assambleyasında ölkəmiz bu beynəlxalq təşkilatın üzvlüyünə qəbul edilib.

Mədəniyyət Nazirliyinin ilk dəfə iştirak etdiyi 2-ci Baş Assambleya iştirakçıları əvvəlcə "Çinin ənənəvi incəsənətində Pekin cərəyanı" adlı sərgi ilə tanış olublar.

Tədbirdə Şandon vilayəti qubernatorunun müavini Denq Yunfeng, Çindao şəhərinin meri Jao Haoji, ACHA şurasının sədri, Çinin mədəniyyət və turizm nazirinin müavini və Mədəni İrs üzrə Çin Milli Assosiasiyasının sədri Li Çun, Tayland-Çin Əməkdaşlıq Şurasının sədri, Tayland Baş nazirinin keçmiş müavini Finij Yarusombat, Hondurasın mədəniyyət naziri xanım Qloria Annarella Velez Osejo, Mədəni İrsin Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM) direktoru xanım Aruna Françeska Maria Gujral və digər rəsmilər açılış nitqi ilə çıxış ediblər.




İclasda gündəlikdə duran məsələlər, o cümlədən ötən dövr ərzində görülən işlərin hesabatı, 2024–2025-ci illər üzrə fəaliyyət planları və s. məsələlərə dair məruzələr dinlənilib. Assambleya çərçivəsində həmçinin alyansın Elmi şurasına seçkilər keçirilib. Ölkəmizdən ekspert Rizvan Bayramov şuraya üzv seçilib.

Assambleya çərçivəsində ölkələrin təqdim etdiyi layihələrin müzakirəsi də aparılıb. Müzakirələr zamanı Mədəniyyət Nazirliyinin təqdim etdiyi layihə təşkilat tərəfindən dəstəklənib.

Tədbirin sonunda "Çindao tövsiyələri" adlı yekun sənəd qəbul edilib.

İyunun 20-də ACHA-nın təşkilatçılığı ilə "Müstəmləkəçilik kontekstində çıxarılan mədəni obyektlərin mühafizəsi və qaytarılması" üzrə beynəlxalq konfrans öz işinə başlayıb. Çin Mədəni İrs Assosiasiyasının sədr müavini Xie Bing konfransı giriş sözü ilə açaraq sözü rəsmilərə verib.

Konfransda Şandon Universitetinin prezidenti Li Sucai, Şandon vilayətinin vitse-qubernatoru Deng Yunfeng, Çindao şəhərinin vitse-meri Jao Yanın açılış nitqləri, Beynəlxalq Muzeylər Şurasının (ICOM) direktoru Emma Nardinin videomüraciəti dinlənilib.

ACHA Şurasının sədri, Çinin mədəniyyət və turizm nazirinin müavini və Mədəni İrs üzrə Çin Milli Assosiasiyasının sədri Li Çun müstəmləkəçilik prosesində Asiyadan daşınmış mədəni irslə bağlı çıxış edib və təşkilatın bu istiqamətdə hədəflərindən danışıb.

Sonra Norveçin KODE Art muzeyindən Çinə qaytarılan mərmər fiqurlara dair film izlənilib.

Mövzu üzrə təqdimatlarla Pekin Universitetinin professoru Li Kinq, Çikaqo Universitetinin professoru Lotar fon Falkenhausen, Kaliforniya (UCLA) Universitetinin professoru Donald Harper, Böyük Britaniyanın "The Art Loss Register" təşkilatının rəhbəri Olivia Vitney və digər tanınmış ekspertlər çıxış ediblər. Konfransdan sonra iştirakçılar üçün Çindao şəhərinin tarixi-mədəni irs obyektləri ilə ətraflı tanışlıq turu təşkil olunub.

Asiya Mədəni İrs Alyansının (ACHA) 2-ci Baş Assambleyası iyunun 20-də öz işini başa vurub.

# Təmir-bərpa və abadlıq işlərinə nəzarət edilir

Son günlər Bakı şəhərində yerləşən bir sıra memarlıq abidələri olan binalarda aparılan təmir-bərpa və abadlıq işləri ictimaiyyət arasında müzakirələrə yol açıb. Bu narahatlıq bəzi tarixi bina fasadlarının, o cümlədən daşla üzlənmiş binaların rənglənməsi ilə bağlıdır.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində paytaxt ərazisində bir sıra binalarda, o cümlədən memarlıq abidələrində təmir-bərpa işləri həyata keçirilir.

Bununla bağlı Mədəniyyət Nazirliyinin məlumatında diqqətə çatdırılır ki, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, abidələrin üzərində bərpa, konservasiya, təmir, rekonstruksiya, regenerasiya və digər işlər onların layihələri Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq institutlarının rəyi nəzərə alınmaqla, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılaraq, Mədəniyyət Nazirliyi tərəfindən təsdiq edildikdən sonra aparılmalıdır. Hazırda həyata keçirilən işlərin təcililiyini nəzərə alaraq, yaranan problemləri yerində həll etmək məqsədilə sözügedən təşkilatların əməkdaşlarından ibarət işçi qrup yaradılıb.

Daimi olaraq müvafiq işlərin aparıldığı tarixi binalara baxış keçirilir, görülən işlər nəzarətdə saxlanılır. Sözügedən tədbirlər Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin tabeliyində Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi və Azərbaycan Memarlar İttifaqı ilə birgə müvafiq işləri həyata keçirən "Bakı Abadlıq Xidməti" MMC ilə koordinasiyalı şəkildə reallaşdırılır.



Təəssüflə etiraf etmək lazımdır ki, son illər ərzində abidələrimiz məhz istifadəçilər tərəfindən ciddi təsirlərə məruz qalıb – qapı-pəncərə ətrafındakı daş fasadlar rənglənib, balkon və eyvanlar şüşələnib, fasadlarda müxtəlif naqillər və borular çəkilib, birinci mərtəbələrdə fasadlar müasir materiallarla üzlənib, kondisionerlər və reklamlar quraşdırılıb və s. 2000-ci illərin əvvəllərində yuxarıda qeyd olunan qanunsuz əlavələri aradan qaldırmaq üçün fasadların ümumi təmizlənməsi, bir çox binaların bir rəngə boyanması nəticəsində bir sıra memarlıq abidələrinin nəinki tarixi görkəmi itirilib, tikililərə bərpası mümkün olmayan ziyan dəyib. Məsaməli əhəngdaşının müasir boyalarla rənglənməsi ona gətirib çıxarıb ki, bu gün müəyyən yerlərdə daş örtüklərin, xüsusilə abidələrimizə gözəllik gətirən təkrarsız memarlıq detallarının ovulması baş verir.

Məlumatda vurğulanır ki, uzun illər ərzində müxtəlif müdaxilələrə məruz qalmış fasadların əvvəlki görkəminə qaytarılması, eyni zamanda qopmuş yerlərinin bərpası, kommunikasiya xətlərinin və məişət qurğularının səliqəyə salınması həyata keçirilir.

İllər öncə görkəmi dəyişdirilən və yenidən rənglənən fasadlar təmizlənir. Əvvəlcədən daşla üzlənməyən binaların hissələri tikinti zamanı istifadə olunan orijinal rəngə mümkün qədər uyğun gələn rənglə boyanacaq. Təmir-bərpa və abadlıq işlərinin tarixi abidələrin memarlıq üslubuna, bədii-estetik görkəminə xələl yetirilmədən aparılmasına ciddi nəzarət olunur.

# Gəncədə Bəstəkarlar İttifaqının səyyar plenumu

*əvvəli səh. 1-də*

İndi isə 15–17 iyun tarixlərində keçirilən səyyar plenumunun tədbirləri barədə məlumat verək.





15 iyunda Gəncəyə gedən nümayəndə heyətini Bəstəkarlar İttifaqı Gəncə bölməsinin rəhbəri bəstəkar Məmməd Cəfərov öz tələbələri və Gəncə ziyalıları ilə qarşıladılar. Sonra Ulu öndərimiz Heydər Əliyevin abidəsi ziyarət olundu. Həmin gün F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında səyyar plenumun açılış mərasimi oldu.

Giriş sözü ilə Bəstəkarlar İttifaqının sədri, AMEA-nın müxbir üzvü, Xalq artisti Firəngiz Əlizadə və F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının direktoru Əməkdar artist Ramil Qasımov çıxış edərək, ittifaqın və onun Gəncə bölməsinin fəaliyyətindən danışdılar, səyyar plenumun proqramı barədə məlumat verdilər.

Gəncə Dövlət Filarmoniyası kollektivlərinin rəngarəng konsert proqramı təqdim olundu. Xalq artisti Rafael Bayramovun rəhbərliyi ilə kamera orkestri və Xəyal Qəhrəmanovun rəhbərliyi ilə xalq çalğı alətləri orkestri Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Səid Rüstəmov, Süleyman Ələsgərov, Aqşin Əlizadə, Vasif Adıgözəlov, Sərdar Fərəcov və Məmməd Cəfərovun əsərlərini ifa etdilər. Solistlərdən Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, Elmir Pişnamazzadə, Samirə Hacıyeva, Nərgiz Əkbərli (fortepiano), Əli Əliyev (tar), Rüstəm Cəfərovun orkestrlə birgə çıxışlarını və Gəncə Musiqi Kollecinin xor kollektivini tamaşaçılar rəğbətlə qarşıladılar.



16 iyun tarixində səyyar plenumun ikinci günü də maraqlı tədbirlərlə yadda qaldı. Gəncə Dövlət Filarmoniyasının "Üzbəüz" layihəsində Xalq artisti, professor Firəngiz Əlizadə ilə Gəncə ziyalılarının görüşü oldu.

Filarmoniyanın direktoru Ramil Qasımov qonaqları salamlayıb, Firəngiz Əlizadənin yaradıcılığı haqqında daha ətraflı danışmaq üçün sözü Əməkdar incəsənət xadimi, professor Həcər Babayevaya verdi. O, əvvəlcə Firəngiz Əlizadənin yaradıcılığına dair rejissor Cahangir Zeynallının çəkdiyi sənədli filmi təqdim etdi. Filmdə Firəngiz xanımın dünyanın müxtəlif konsert salonlarında məşhur musiqiçilərin ifasında səslənən əsərləri və onun haqqında görkəmli sənətkarların fikirləri diqqətə çatdırılır. Həcər Babayeva bəstəkarın zəngin yaradıcılıq yolundan söhbət açdı.

Sonra Firəngiz xanım çıxış etdi, tamaşaçılar tərəfindən ona verilən sualları səmimi və dolğun şəkildə cavablandırdı.

Həmin gün Gəncə Dövlət Filarmoniyasında Bakıdan gələn musiqiçilərin ifasında kamera konserti təqdim olundu. Əməkdar artist Fəridə Məmmədovanın ifasında Qara Qarayevin və Əməkdar müəllim, bəstəkar Lalə Cəfərovanın romansları səsləndi. Beynəlxalq müsabiqələr laureatları Zərrin Əliyeva, Zakir Əsədov, Orxan Hüseynov və Elçin Məmmədov da Qara Qarayev, Niyazi, Oqtay Zülfüqarov, Firəngiz Əlizadə və Ayaz Qənbərovun əsərlərini ifa etdilər. Fikrət Əmirovun "Min bir gecə" baletindən "Bayram rəqsi" ilə yekun vurulan konsert proqramı alqışlarla qarşılandı.

Səyyar plenum iyunun 17-də möhtəşəm bir əsərlə başa çatdı. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı solistlərinin ifasında Firəngiz Əlizadənin "İntizar" operası nümayiş olundu.

Tamaşadan öncə bu sətirlərin müəllifi Firəngiz Əlizadənin opera yaradıcılığından və xüsusən də "İntizar" operasının musiqi mədəniyyətimiz üçün tarixi əhəmiyyətindən danışdı. Qeyd olundu ki, 2007-ci ildə ərsəyə gələn "İntizar" operası vətənpərvərlik mövzusunun musiqidə təcəssümü və qələbə müjdəsidir. Çünki əsərin sonunda səhnədə görünən ağ atlı oğlan əsl qəhrəmanlıq simvolu və qələbəyə inamın təzahürüdür. "İntizar" operası qələbə intizarı ilə yazılan əsərdir. Artıq bu intizara da son qoyulub və neçə-neçə ağ atlı oğullar meydana atılaraq torpaqlarımızı azad edib, xalqımıza əbədi qələbə bəxş ediblər.

Əməkdar incəsənət xadimi Hafiz Quliyevin quruluşunda tamaşaya qoyulan "İntizar" operasını Xalq artisti Əkrəm Poladov, Əməkdar artistlər Ramil Qasımov, İnarə Babayeva, İlahə Əfəndiyeva, Səbinə Vahabzadə, Tural Ağasıyev, solistlər Aysel İbrahimova, Taleh Yəhyayev, Fəhmin Əhmədli, Əməkdar incəsənət xadimi Sevil Hacıyevanın rəhbərliyi ilə xor kollektivi təqdim etdilər. Qəhrəmanlıq ruhunda tamamlanan bu əsər tamaşaçılarda da böyük ruh yüksəkliyi və xoş ovqat yaratdı. Məhz bu xoş ovqatla da plenum öz işini başa çatdırdı.

**Səadət Təhmirazqızı**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

# "Pianissimo" – pianoçuların dueti

Beynəlxalq müsabiqələr laureatı, pianoçu Fəqan Həsənli və bəstəkar, pianoçu, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ülviyyə Kazımovanın iştirakı ilə Beynəlxalq Muğam Mərkəzində "Pianissimo" adlı konsert keçirilib.



İyunun 12-də gerçəkləşən duet-konsertdə Y.S.Bax, A.Vivaldi, J.Bize, M.Ravel, Q.Qarayev və digər bəstəkarların solo fortepiano, duet üçün orijinal və işləmə əsərləri səsləndirilib.

Qeyd edək ki, pianoçular dəfələrlə eyni səhnəni bölüşsələr də, ilk dəfə fortepiano dueti kimi konsert proqramı ilə musiqisevərlərin görüşünə gəliblər. Konsertdə səslənən əsərlər tarixi xronoloji ardıcıllıqla deyil, əsərlərin bədii quruluşuna əsasən sıralanıb. İfaçılar həm də aparıcı qismində çıxış edərək əsərlər barədə məlumat veriblər.

Gecənin proqramı klassik musiqidən impressionizm və müasir musiqiyə qədər geniş diapazonu əhatə edib. Proqram A.Vivaldi mövzuları əsasında Amerika pianoçusu Qreq Anderson tərəfindən işlənən "Göz yaşı yağışı" ilə açılıb, sonra Ü.Kazımova fortepiano üçün yazdığı "Miniatürlər"i ifa edib. Bəstəkar yeni bəstəsi olan "Yaşanmayan ana xatirəsi" əsərini, Fəqan Həsənli isə öz işləməsində Fikrət Əmirovun "Mən səni araram" mahnısına improvizasiyanı ilk dəfə təqdim ediblər. Konsert Q.Qarayevin "Yeddi gözəl" baleti əsasında M.Perevertaylonun işləməsi olan "Gözəllər gözəli" və A.Məlikovun "Skerso" əsərinin ifası ilə yekunlaşıb.

***

Qeyd edək ki, Ülviyyə Kazımova Bakı Musiqi Akademiyasında (BMA) Əməkdar müəllim, professor Səidə Behbudovanın sinfini bitirməklə yanaşı, Arif Məlikov və Ceyhun Allahverdiyevdən bəstəkarlıq dərsləri alıb. "Musiqili anlar", "Pyeslər", violin və piano üçün 4 hissəli "Silsilə"nin müəllifidir. Ümumrusiya Musiqi Yaradıcılıq Birliyinin keçirdiyi müsabiqədə "Piano duet" nominasiyasında Qran-pri mükafatına layiq görülüb.

Fəqan Həsənli BMA-nı (professor Tərlan Seyidovun sinfi) bitirib. Azərbaycan, Gürcüstan və Bolqarıstanda beynəlxalq müsabiqələrdə birincilik qazanıb. 2019-cu ildə M.Rostropoviç adına beynəlxalq festival çərçivəsində keçirilən konsertdə dünyaşöhrətli E.Bronfmanla bir səhnəni bölüşüb. 2022-ci ildə Macarıstanın Mendelson Kamera Orkestri ilə həm pianoçu, həm də ilk dəfə olaraq dirijor kimi çıxış edib. Musiqiçinin bu il ilk albomu işıq üzü görüb.

**L.Azəri**

# Arxeologiya sahəsində Azərbaycan-Koreya elmi əməkdaşlığı

İyunun 20-də AMEA-da "Arxeologiya sahəsində Azərbaycan-Koreya elmi əməkdaşlığı" mövzusunda beynəlxalq konfrans keçirilib.



Konfransda çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli artıq üç ildir ənənəvi olaraq keçirilən tədbirin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, son illərdə Azərbaycan-Koreya arxeoloji ekspedisiyası Qarabağda geniş tədqiqat işləri aparıb. Koreya arxeoloqlarının iştirakı ilə Füzulidə Yedditəpə kurqanlarında aparılan tədqiqatlar zamanı mühüm nəticələr əldə olunub. Bir neçə il öncə AMEA-nın müxbir üzvü, mərhum professor İlyas Babayevlə birgə Qəbələdə Azərbaycan-Koreya birgə arxeoloji ekspedisiyası elmi tədqiqatlar aparıb. Həmçinin Arxeologiya və Antropologiya İnstitutunun Qəbələ etnoqrafik ekspedisiyası Qəbələ bölgəsində kompleks tədqiqatlar aparıb. Bunun nəticəsi olaraq Qəbələnin tarixi, etnoqrafiyası və folkloru barədə 3 dildə kitab çap olunub.

Koreya Respublikasının Azərbaycandakı səfiri Li İn-Yonq çıxış edərək ölkələrimiz arasında diplomatik münasibətlərin 1992-ci ildə qurulduğunu, əlaqələrin yüksələn xətlə inkişaf etdiyini bildirib. O, Azərbaycanda Koreya mütəxəssislərinin iştirakı ilə 2009-cu ildə başlanılan arxeoloji tədqiqatlar zamanı mühüm elmi nəticələrin əldə olunduğunu deyib. Bildirib ki, Qəbələnin arxeoloji tədqiqatında koreyalı mütəxəssislərin iştirakı iki ölkə arasında əməkdaşlıq tarixində yeni səhifə açıb.

Arxeologiya və Antropologiya İnstitutunun direktoru Fərhad Quliyev Qəbələ Arxeoloji Mərkəzinin fəaliyyəti, müxtəlif illərdə aparılan arxeoloji tədqiqatlar və onların nəticələri haqqında məlumat verib.

Konfransda "Qəbələ qazıntılarından aşkar edilmiş Roma idxalına aid nümunələr", "Şərqi və Qərbi Avrasiyada aşkar edilmiş süni deformasiyalı kəllələr", "Erkən Dəmir dövründə Qafqazın iqtisadi və intellektual mərkəzi (e.ə. X əsr)", "Koreya yarımadasında qazılmış Araba çətir komponentləri" və digər mövzularda məruzələr dinlənilib.

Tədbirdə Koreya, Türkiyə və Gürcüstanın alim və mütəxəssisləri, Arxeologiya və Antropologiya İnstitutunun əməkdaşları iştirak ediblər.

# Avropa milli kitabxanalarının illik toplantısı keçirilib

Xəbər verdiyimiz kimi, 17-18 iyun tarixlərində Polşanın paytaxtı Varşavada Avropa Milli Kitabxanalar Konfransının (CENL) 38-ci illik iclası keçirilib. CENL Avropanın 46 ölkəsindən milli kitabxanaların üzv olduğu bir təşkilatdır.

Azərbaycan Milli Kitabxanasının direktoru professor Kərim Tahirov iclasda iştirak edib.

İclasın açılış mərasimində CENL-in sədri Frank Şoltse, Polşa Milli Kitabxanasının baş direktoru Tomas Makovski çıxış ediblər.

CENL-in 2023-cü ildə Parisdə keçirilmiş 37-ci illik iclasının protokolu və illik hesabatı müzakirə edilib.

Sonra Finlandiya Təhsil və Mədəniyyət Nazirliyinin nümayəndəsi Minna Karvonen "Rəqəmsal mədəni irs zamanları, ideyaları və insanları birləşdirir" mövzusunda təqdimatla çıxış edib.

CENL üzvlərindən Fransa, Almaniya, Serbiya, İspaniya, Belçika, Lüksemburq, Estoniya Milli kitabxanalarının rəhbərləri CENL-ə üzv kitabxanalarda elektron qanuni depozitin statusu haqqında təqdimat ediblər. Həmçinin qanunvericilik, tələblər, təcrübələr haqqında danışılıb, müzakirələr aparılıb.



İclasın ikinci günü Polşa Milli Kitabxanasının baş direktoru Tomas Makovski "Milli Kitabxanalar ümummilli şəbəkə koordinatorları kimi" mövzusunda təqdimat edib.

Moldova Milli Kitabxanasının baş direktoru Elena Pintilei "Sosial dayanıqlığın yaradılması üçün daha güclü, peşəkar şəbəkə və sülh", Fransa Milli Kitabxanasının Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Ofeli Ramonatkso "Robotik mühafizə saytları", Macarıstanın Seçeni Milli Kitabxanasının baş direktoru David Rozsa "Seçeni Milli Kitabxanasının və Lüksemburq Milli Kitabxanasının veb arxiv infrastrukturunun təkmilləşdirilməsi" mövzularında çıxış ediblər. Britaniya Milli Kitabxanasının baş direktoru Roli Kitinq "Kiberhücumdan dərslər" mövzusunda təqdimatla çıxış edib.

Kitabxanalarda süni intellekt, bərabərlik, müxtəliflik və inklüziv şəbəkə qrupu haqqında müzakirələr olub.

Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov çıxış edərək Polşa Milli Kitabxanasının baş direktoru Tomas Makovskiyə tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkür edib. Direktor "Salam, Azərbaycan", "Azərbaycan Milli Kitabxanası", "Azərbaycan xalçaları dünya kolleksiyalarında" kitablarını, həmçinin Azərbaycan xəritəsini Polşa Milli Kitabxanasının fonduna təqdim edib. O, eyni zamanda Polşa Milli Kitabxanasını oktyabr ayında keçiriləcək X Bakı Beynəlxalq Kitab Sərgisində ekspozisiya ilə iştiraka dəvət edib.

Polşa Milli Kitabxanasının ev sahibliyi etdiyi iclasın sonunda xatirə şəkli çəkilib. Növbəti il CENL-in iclasına Şotlandiya Milli Kitabxanası ev sahibliyi edəcək.

# "Rast" muğamı üstə Füzulinin qəzəlləri

Məhəmməd Füzulinin 530 illiyi münasibətilə iyunun 13-də Beynəlxalq Muğam Mərkəzində növbəti konsert keçirilib.



Bədii-musiqili gecə Mədəniyyət və İncəsənət Universitetinin Muğam sənəti kafedrası tərəfindən hazırlanıb.

Xalq artisti Simarə İmanovanın rəhbərliyi ilə xanəndələr Gülşən Əliyeva, Vüqar Əbilov, Günel Kərimova, Şirəli Məmmədov, Zümrüd Kərimova, Elim Ömərov, Rəna Mehrəliyeva tərəfindən "Rast" muğamında dahi şairin qəzəlləri ifa olunub. Əməkdar artist Azad Şükürovun aparıcılığı ilə gerçəkləşən konsertdə muğamlarımız bədii qiraətlə harmoniya təşkil edib.

Xanəndələri Ramin Rzayevin (tar) bədii rəhbərliyi ilə Əməkdar artist Fəridə Məlikova (kamança), Aygün Mehmanlı (qanun), Səyyar Teymurov (nağara), Şaiq Əsədov (balaban) və Elnur Sadıqzadə (bəm balaban) müşayiət ediblər.

Füzuli qəzəllərinin "Rast" muğamı üçün tərtibatını qəzəlxan-şair Səlim Nəsirli hazırlayıb.

**Lalə**

# III Bakı Piano Festivalı davam edir

16-29 iyun tarixlərində Əməkdar artist Şahin Növrəslinin təsisçisi olduğu III Bakı Piano Festivalı keçirilir.

"Landmark Hotel"də təşkil olunan festivalın media üçün təqdimatında Braziliyanın Azərbaycandakı səfiri Manuel Monteneqro, Latviyanın Azərbaycandakı səfiri Edqars Skuya, Fransanın Azərbaycandakı Səfirliyinin əməkdaşlıq və mədəni fəaliyyətlər üzrə müşaviri Şarl Denye, digər qonaqlar iştirak ediblər.

Şahin Növrəsli festivalın proqramı və iştirakçıları haqqında danışıb, bütün tərəfdaşlara, sponsorlara və media nümayəndələrinə təşəkkürünü bildirib.

Festival iyunun 16-da Rebeka Orteqa – "Flamenco Company"nin iştirakı ilə flamenko konserti ilə açılıb.

Festival çərçivəsində "Fortepiano üçün etüd" ədəbi müsabiqəsi də keçirilib. Müsabiqənin məqsədi ədəbi əsərdə canlı musiqi obrazı yaratmaq və ədəbiyyatda musiqi mövzusunu populyarlaşdırmaq olub. Əsərləri münsiflər heyətinin üzvləri – Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinin direktoru Anna İbrahimbəyova, Azərbaycan Yazıçılar Birliyinin üzvü Aleksandr Xakimov, "NG Creators Club"un direktoru Natiq Əliyev və festivalın media əlaqələndiricisi Rüstəm Hüseynov iştirakçıların əsərlərini qiymətləndiriblər.

III Bakı Piano Festivalı iyunun 29-da İsak Jamba qrupunun ifası – Braziliya samba konserti ilə başa çatacaq.

# Məktəblərin sənət hesabatları

Qazax şəhər 1 nömrəli Uşaq musiqi məktəbi 2023/2024-cü tədris ilinin yekunu ilə əlaqədar hesabat konserti təqdim edib. Məktəbin direktor vəzifəsini icra edən Rövşanə Lətifova müəllimlərə öz təşəkkürünü bildirib, tədris ilində məktəbin uğurlarından danışıb. Sonra səhnə şagirdlərin ixtiyarına verilib. Onlar Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərlərini ifa ediblər.

***



Laçın şəhər 1 nömrəli Musiqi məktəbində (Bakı şəhəri) hesabat konserti keçirilib. Şərqi Zəngəzur RMİ-nin rəisi Rəşad Əliyevin də iştirak etdiyi konsertdə Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səslənib, xalq mahnıları ifa olunub. Sonda RMİ-nin rəis müavini İlham Əhmədov çıxış edərək məktəbin kollektivinə uğurlar arzulayıb.

***



Qobustan rayon Heydər Əliyev Mərkəzində Qobustan şəhər Rəşid Behbudov adına Uşaq incəsənət məktəbinin də hesabat konserti olub. Tədbirdə Dağlıq Şirvan RMİ-nin və musiqi məktəbinin əməkdaşları iştirak ediblər. Konsert proqramında məktəbin fortepiano, xalq çalğı alətləri və xanəndəlik şöbələri şagirdlərinin, nağara ansamblı və xor kollektivinin çıxışları dinlənilib.

# NDU-da yeni nəşrlərin təqdimatı

21-22 iyun tarixlərində Naxçıvanda "Qərbi Azərbaycana qayıdış" adlı festival-konqres keçirilir. Festival-konqres çərçivəsində tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılması məqsədilə çap edilmiş elmi əsərlərin təqdimatları təşkil olunur.



Naxçıvan Dövlət Universitetinin (NDU) kitabxanasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın "XX əsrdə Dərələyəzdə urbisid və etnosid aktları" kitabının və "Ulduz" jurnalının "Qərbi Azərbaycan" xüsusi buraxılışının təqdimatı olub.

NDU-nun rektoru Elbrus İsayev çıxış edərək Qərbi Azərbaycan mövzusunun xalqımızın tarixi yaddaşı olduğunu bildirib, təqdimatı keçirilən nəşrlərin əhəmiyyətini vurğulayıb.

Filologiya üzrə fəlsəfə doktorları Arifə Zeynalova, Qənirə Əsgərova, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi dosent Zülfiyyə İsmayıl, ADPU-nun Filologiya fakültəsinin dekanı dosent Könül Həsənova, ADPU Qərbi Azərbaycan Araşdırmaları Mərkəzinin rəhbəri tarix üzrə fəlsəfə doktoru Leyla Cəlalova yeni nəşrlər haqqında fikirlərini bildiriblər.

Sonda müəllif Mahirə Hüseynova çıxış edənlərə təşəkkürünü bildirib.

# Macarıstanlı deputat Ağdamda

Ağdamda dirçəlişin, Azərbaycan xalqının ruh yüksəkliyinin və möhkəm iradəsinin şahidi oldum.

Bu sözləri Macarıstan Milli Məclisinin deputatı, "Bizim Vətənimiz" (Mi Hazank) Partiyası sədrinin müavini İştvan Apati işğaldan azad olunmuş Ağdam şəhərinə səfəri zamanı bildirib.

O, Azərbaycan xalqını macarlarla müqayisə edərək deyib: "Bizim tariximizdə hər şeyi yenidən başlamaq məcburiyyətində olduğumuz bir neçə məqam olub. Amma biz ruhdan düşməmişik. Həmişə möhkəm iradəmiz, yeni başlanğıc üçün enerjimiz olub. İndi burada gördüklərim onu deməyə əsas verir ki, sizin də yolunuza çıxan bütün çətinliklərə və maneələrə rəğmən rekonstruksiya işlərinə başlamaq və bu şəhəri yenidən dirçəltmək üçün özünüzdə güc tapmısınız".

# "Qarabağın dirçəlişi – ekolayihələr" müsabiqəsi başa çatıb

Azərbaycan Universitetinin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində elan etdiyi "Qarabağın dirçəlişi – ekolayihələr" mövzusunda ən yaxşı tələbə elmi işi müsabiqəsi yekunlaşıb.

Bu münasibətlə təşkil olunan mükafatlandırma mərasimində müsabiqənin qalibləri və xüsusi nominasiyalara layiq görülənlər elan olunub, onlara müvafiq sertifikat, pul mükafatı (I yer – 1000 manat; II yer – 800 manat; III yer – 600 manat) və müxtəlif hədiyyələr təqdim edilib.

Mükafatlandırma mərasimində giriş nitqi söyləyən elmi işlər üzrə prorektor Yusif Qasımov layihənin ideyasına, həmçinin həyata keçirilməsində göstərdiyi dəstəyə görə rektor Səadət Əliyevaya təşəkkür edib. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Noyabr ayında isə ölkəmiz COP29 tədbirinə ev sahibliyi etməyə hazırlaşır. "Qarabağın dirçəlişi – ekolayihələr" mövzusunda ən yaxşı tələbə elmi işi müsabiqəsi də məhz ölkədə gedən proseslərə dəstək məqsədilə həyata keçirilib.

Universitetin Elm şöbəsinin müdiri Lətifə Ağamalıyeva müsabiqə haqqında məlumat verib və qalibləri elan edib. Münsiflər heyətinin qərarına əsasən, I və II yerlərə Bakı Ali Neft Məktəbinin tələbələri layiq görülüb. Azərbaycan Universitetinin bir qrup tələbəsinin təqdim etdiyi "Smart kənd" layihəsi isə III yeri tutub.

Tədbirdə "Qarabağın dirçəlişi – ekolayihələr" mövzusunda ən yaxşı tələbə elmi işi müsabiqəsinin qalibləri də elan edilib.

Qeyd edək ki, işğaldan azad olunmuş torpaqlarda başlanan quruculuq işlərində gənclərin aktiv iştirakının təmin edilməsi məqsədilə keçirilən müsabiqəyə ümumilikdə müxtəlif istiqamətlərdə 50-yə yaxın layihə təqdim olunmuşdu.

# Nazir Samuxda vətəndaşları qəbul edib, mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, hər ay mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda qəbullar keçirilir, vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətlərinə baxılır, aidiyyəti üzrə tədbirlər görülür.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin qəbul qrafikinə uyğun olaraq, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimlinin vətəndaşlarla növbəti görüşü iyunun 14-də Samux rayonunda keçirilib.

Qəbuldan öncə nazir və rayonun icra başçısı Firdovsi Əliyev Samux şəhərində Ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq əziz xatirəsini ehtiramla yad ediblər.



Samux şəhər Heydər Əliyev Mərkəzində təşkil olunan qəbulda Samux, Goranboy, Göygöl, Daşkəsən rayonlarından, eləcə də Gəncə və Naftalan şəhərlərindən bir qrup vətəndaşın müraciətlərinə baxılıb.

Müraciətlər mədəniyyət sahəsinə dair təklif və təşəbbüslər, işlə təmin olunma və digər məsələlərlə bağlı olub. Həmçinin sahə üzrə bir sıra mövcud problemlər diqqətə çatdırılıb.

Adil Kərimli vətəndaşları dinləyərək hər bir müraciət üzrə məsələlərin operativ şəkildə araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı Mədəniyyət Nazirliyinin məsul nümayəndələrinə tapşırıqlar verib.

Qəbul zamanı şəhid ailələri və qazilər tərəfindən qaldırılan məsələlərə xüsusi diqqət göstərilməsi, vaxtında baxılması məqsədilə müraciətlər qeydiyyata alınaraq nəzarətə götürülüb.

***

Qəbuldan sonra Adil Kərimli Samux rayonunda fəaliyyət göstərən bir sıra mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olub.

Samux şəhər Musiqi məktəbi, Samux rayon Mədəniyyət Mərkəzi, Samux rayon MKS-nin Mərkəzi Kitabxanası və Samux rayonu Sərkar kənd Musiqi məktəbinə baxış keçirilib. Müəssisələrin fəaliyyəti və cari vəziyyəti haqqında məlumat verilib.

Daha sonra Gəncə şəhərinə gələn nazir dahi şair və mütəfəkkir Nizami Gəncəvinin məqbərəsini ziyarət edib. Adil Kərimli Gəncə şəhərində Nizami Muzeyinə də baxış keçirib.

Mədəniyyət ocaqlarında işin günün tələbləri səviyyəsində qurulması ilə bağlı tapşırıq və tövsiyələr verilib.

# Yerlərdə bayram tədbirləri

Mərkəzi Aran RMİ-nin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrinin əməkdaşları tərəfindən Qurban bayramı (16-17 iyun) münasibətilə Mingəçevir şəhəri, Yevlax, Ağdaş, Göyçay, Kürdəmir, Ucar və Zərdab rayonlarında şəhid ailələri ziyarət olunub. Ailələrə Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı rayon komitələrinin dəstəyi ilə bayram sovqatı təqdim edilib.

***





Lənkəran şəhər MKS-nin Mərkəzi Kitabxanasının kollektivi Qurban bayramı münasibətilə Vətən müharibəsi şəhidi Mirxəyal Kərimzadənin ailəsinə baş çəkib. Əvvəlcə şəhidin məzarı ziyarət olunub. Şəhidin valideynləri ilə görüşdə Mirxəyal Kərimzadənin döyüş yolundan, göstərdiyi qəhrəmanlıqdan söz açılıb. Kitabxananın direktor əvəzi Arzuyə Rufullayeva Qurban bayramı münasibətilə ailəni təbrik edib. Şəhidin anası Elnarə Kərimzadə dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Qurban bayramı münasibətilə Lənkəran şəhər Heydər Əliyev Mərkəzi və Qızılağac Milli Parkının birgə təşkilatçılığı ilə "Yaşıl dünya – mavi səma" layihəsi çərçivəsində Lənkəran 2 nömrəli Ailə tipli kiçik qrup evində kimsəsiz uşaqlar üçün bayram süfrəsi açılıb. Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin direktoru Reyhanə Sadıxova uşaqlara Qurban bayramının sevgi və paylaşmaq kimi mənəvi dəyərlərindən bəhs edib.

Cəlilabad rayon Mədəniyyət Mərkəzi və Göytəpə şəhər Mədəniyyət evinin birgə təşkilatçılığı ilə N saylı hərbi hissədə konsert proqramı keçirilib.

Konsertdən əvvəl Lənkəran-Astara RMİ-nin Cəlilabad üzrə böyük mühasibi Elnur Atakişiyev çıxış edərək əsgərləri müqəddəs bayram münasibətilə təbrik edib, xoş arzularını çatdırıb. Sonra rayon Mədəniyyət Mərkəzinin solistləri tərəfindən hərbi vətənpərvərlik ruhlu musiqi nömrələrindən ibarət konsert proqramı təqdim olunub.

**Hazırladı: N.Məmmədli**

# Bölgələrdən müxtəlif səpkili xəbərlər



Oqtay Kazımi adına Astara şəhər Musiqi məktəbində "Gözəl sonluq" adlı məzun günü keçirilib. Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə məzunların ifasında xalq və bəstəkar mahnıları, eləcə də xarici ölkə bəstəkarlarının əsərləri təqdim edilib. Direktor vəzifəsini icra edən Leyla İskəndərova məzunları təbrik edib, onlara uğurlar arzulayıb.

Astara rayon Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə Astara Dənizkənarı park-bulvarında əhaliyə səyyar kitabxana xidməti göstərilib. Məqsəd uşaqların mütaliəyə marağını artırmaq və yay tətilində onları kitabxanaya cəlb etməkdir. Uşaq şöbəsinin fonduna yeni daxil olmuş kitablar oxuculara təqdim edilib.

***



Masallı rayon Mərkəzi Kitabxanasında "Hüseyn Arif – 100" adlı tədbir keçirilib. Kitabxananın əməkdaşları Şəmsurə Nəsirova və Aidə Quliyeva Xalq şairi Hüseyn Arifin həyat və yaradıcılığından danışıblar.

Diqqətə çatdırılıb ki, edibin "Yolda" poeması əsasında yazdığı eyniadlı pyes 1974-cü ildə Gənc Tamaşaçılar Teatrında səhnələşdirilib. Qeyd olunub ki, şairin şeirləri bir sıra xalqların dillərinə tərcümə olunub, sözlərinə mahnılar bəstələnib.

***



Cəlilabad rayon Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə Birinci Qarabağ müharibəsi şəhidi, Milli Qəhrəman Səfa Axundovun (1958–1992) anadan olmasının 66-cı ildönümü ilə əlaqədar tədbir keçirilib.

Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Uşaq şöbəsinin baş kitabxanaçısı Gülzar Qubadova qəhrəmanın həyat və döyüş yolu haqqında məlumat verib. Sonda məktəblilərin ifasında şəhidlər haqqında şeirlər səsləndirilib.

# Yayda yaşıl turizm: mövsümə "Şahdağ"da start verilib



Yay turizm mövsümünün açılışı ilə əlaqədar iyunun 15-də Dövlət Turizm Agentliyi (DTA) "Şahdağ" Turizm Mərkəzinə mediatur təşkil edib.

Tur zamanı ölkənin, eləcə də "Şahdağ" Turizm Mərkəzinin yay mövsümünə hazırlığı, bu istiqamətdə görülən işlər, həmçinin mövcud və yeni turizm məhsulları haqqında təqdimat olub.

DTA sədrinin müavini Kənan Quluzadə bu il ölkəyə gələn turist sayının pandemiyadan öncəki 2019-cu ilin rəqəmlərinə yaxınlaşacağına ümid etdiklərini bildirib. Deyib ki, bu ilin əvvəlindən ölkəmiz 965 mindən çox xarici vətəndaş qəbul edib, ötən ilin eyni dövrü ilə müqayisədə 35 faiz artım müşahidə olunub.

Diqqətə çatdırılıb ki, bu il Azərbaycanda bir çox irimiqyaslı tədbirlər keçiriləcək və bu, turizmə müsbət təsir göstərəcək. Cari il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib və yaşıl turizmə xüsusilə üstünlük verilir.

Azərbaycan Turizm Bürosunun idarə heyəti sədrinin müavini Cavanşir Bayramov əcnəbi turistlərə yay mövsümündə haykinq, qampinq, yamac paraşütü, vindsörfinq, kaytsörfinq, dayving, raftinq, kempinq kimi turizm məhsullarının təklif olunduğunu, bu məhsulların mövcud və yeni bazarlara uyğunlaşdırılması istiqamətində fəal marketinq və təşviqat kampaniyalarının keçirildiyini bildirib.

Kompleks ərazisində infrastrukturun yenidən qurulması və modernləşdirilməsi işlərinin aparıldığını deyən "Şahdağ" Turizm Mərkəzi QSC-nin sədri Rüstəm Nəcəfov yaxın aylarda ziyarətçilər üçün 2 xətdən ibarət, uzunluğu 1250 metr olan yeni zip-line xəttinin, kros motosikl turlarının, müxtəlif yaş kateqoriyalarına olan uşaqlar üçün avtodrom və s. əyləncələrin istifadəyə veriləcəyini bildirib.

# Horadiz-Ağbənd dəmir yolu xəttində işlər davam edir

"Azərbaycan Dəmir Yolları" QSC (ADY) Horadiz-Ağbənd dəmir yolu xəttində tikinti işlərini davam etdirir.



Qeyd edək ki, layihə üzrə 110,4 km olan dəmir yolu xəttinin üzərində 9 stansiya (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd) olacaq.

ADY-dən verilən məlumata görə, dəmir yolunun tikintisi üzrə işlərin 56 faizi tamamlanıb. Məlumata görə, Azərbaycanın əsas hissəsini Naxçıvanla bağlayacaq Horadiz-Ağbənd dəmir yolu xətti boyunca irimiqyaslı körpülər də daxil olmaqla 500-ə yaxın mühəndis qurğusunun tikintisi həyata keçirilir. Buraya Həkəri çayı üzərindən keçən hissədə (Zəngilan rayonu) 13 aşırımlı və uzunluğu 418 metr olan Azərbaycanın ən uzun dəmir yolu körpüsü də daxildir.

Horadiz-Ağbənd dəmir yolu xəttinin təməli 2021-ci il fevralın 14-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Tikinti işləri Türkiyənin "Kalyon İnşaat" şirkətinin iştirakı ilə həyata keçirilir.

# Özünə qalib gəlməyi bacaran Atəş

Atəş Qarayev. Bu ad indən belə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının afişasında yazılanda, onun ismi böyük səhnələrdə səslənəndə belə təqdim olunacaq: beynəlxalq müsabiqələr laureatı Atəş Qarayev.

*– Əvvələn, ondan başlayaq ki, insan bir gün özünün hansısa qabiliyyətini kəşf edir. Çox zaman isə bu kəşfin müəllifi başqası olur. Maraqlıdır, siz nə zaman bildiniz ki, səsiniz var, oxumağı bacarırsınız? Çünki səs digər istedadlar kimi genetik də ola bilir.*

– Anamın atası Ağalar Əhmədov öz dövründə Şamaxıda tanınmış xanəndələrdən olub. Deyirlər ki, Ağalar kəndin bu başında oxuyanda o biri başında eşidilərmiş. Görkəmli tarzənimiz Əhsən Dadaşov dəfələrlə babamın arxasınca gedib ki, onu televiziyaya çıxartsın, məşhur etsin. Babam köhnə kişilərdən olduğu üçün o zaman sovet qaydalarına görə səhnəyə, ekrana çıxmaq üçün bığ qırxmaq şərtinə razılaşmadığından Şamaxı məclislərindən kənara çıxmayıb. Ağalar babam cavan rəhmətə getsə də, səs qabiliyyəti irsən mənə keçib. Anam Leyla xanım da musiqini çox sevir. Yadımdadır, mən uşaq olanda anam həmişə klassik musiqi dinləyərdi, mən də çox vaxt çalışardım ki, Rəşid Behbudov kimi oxuyum, onu, Müslüm Maqomayevi təqlid edərdim.

*– Deməli, özünüz intuitiv olaraq özünüzə müəllim seçmisiniz…*

– Elə də demək olar… Məktəb demişkən, III, ya da IV sinifdə oxuyurdum. Musiqi dərsində proqramdakı uşaq mahnılarını xor ilə oxuduğumuz zaman müəlliməm Rufina Borisovna qəfil çıxışımızı saxlayıb soruşdu ki, zildən oxuyan kimdir? Səsimi çıxarmadım. Müəllimə bizi təkrar oxudanda səsimi ayırd edib mənə dedi ki, sabah anan məktəbə gəlsin. Mən də bir az həyəcanlandım ki, görəsən neyləmişəm ki, anamı çağırırlar? Ertəsi gün anam məktəbə gələndə Rufina Borisovna ona dedi ki, oğlunuzun gözəl səsi var, onunla məşğul olmaq lazımdır. Rufina xanım özü mənimlə ayrıca təmənnasız məşğul olmağa başladı. Sonra Süleyman Ələsgərov adına 1 nömrəli İncəsənət məktəbində həm fortepiano, həm də xanəndəlik üzrə, Şuşa Musiqi Kollecində fortepiano üzrə təhsil aldım.

*– Sizi Musiqi akademiyasına aparan yol bir az uzun olub elə bil…*

– Kolleci bitirəndə əsgərlik yaşım çatmışdı deyə, Vətən qarşısında övladlıq borcumu ödədim. 2014-cü ildə əsgəri xidmətimi başa vurandan sonra Bakı Musiqi Akademiyasına daxil oldum və Əməkdar artist, professor Hüseyn Əliyevin sinfində təhsil aldım. Mən klassik vokal üzrə ilk dərsimi Hüseyn müəllimdən almışam. Hətta kollecdə oxuyanda belə iki il akademiyada hazırlıq kursunda Hüseyn müəllim mənimlə məşğul olub.

*– Yaradıcılıq bioqrafiyanıza baxanda gördüm ki, bizim opera teatrına gəlməzdən öncə yolunuz Böyük Teatrdan keçib…*

– Akademiyadan sonra Azərbaycan Dövlət Akademik Musiqili Teatrında üç il çalışdım, tamaşalarda baş rolları ifa etdim. Rusiya Böyük Teatrın Gənclər opera proqramının bədii rəhbəri, Rusiyanın Əməkdar incəsənət xadimi Dmitri Vdovin gənc vokalçıları dinləmək məqsədilə Bakıya gəlmişdi. O qədər də böyük gözləntim olmasa da, dinləmələrə qatıldım. Təkcə mənim seçilib ikinci tur üçün Moskvaya çağrılacağımı heç gözləmirdim. Amma ikinci, üçüncü turdan keçib təxminən bir il Böyük Teatrın Gənclər proqramında staj keçdim.

*– Səhv etmirəmsə, bu proqramda iştirak edən ilk azərbaycanlısınız…*

– Bəli. 2020-ci ildə pandemiya başlayanda da fikirləşdim ki, təkbaşına Moskvada qapanıb qalmağın mənası yoxdur. Odur ki, vətənə qayıtdım. Sonrasını da bilirsiniz…

*– Mən bilirəm, amma oxucularımız bilmir…*

– Müharibə başlayanda qərar verdim ki, Qarabağ uğrunda savaşdan kənarda qala bilmərəm. Böyük Teatr da, sənətim də, səsim də gözümdə deyildi, könüllü olaraq orduya yazıldım. Şükürlər olsun ki, 44 gün savaşın içində oldum, sağ-salamat, qalib geri döndüm. Növbəti Gənclər günündə möhtərəm Prezidentimizin mükafatına layiq görüldüm.

*– Müharibədən sonra da üz tutdunuz İtaliyaya…*

– Əslində, Ankara Opera Teatrına dəvət almışdım. Amma o vaxt bizim direktorumuz Yusif Eyvazovla heç bir şəxsi tanışlığımız olmasa da, o mənimlə maraqlandı və məsləhət gördü ki, Neapolda Opera teatrında açılan gənclər truppasına müraciət edim. Etiraf etdim ki, mənim Neapola getmək üçün maddi imkanım yoxdur. Yusif müəllim dedi ki, mən sənə dəstək olacağam. İnanırsınız, Yusif müəllim mənim təkcə yol, hoteldə qalmaq xərcimi çəkmədi, cibxərcliyinədək verdi. Neapola getdim, oxudum, məni bəyənib truppaya dəvət etdilər. Sadəcə, pandemiya səbəbindən çalışma vizası ala bilmədiyim üçün Bakıda qalıb bizim Opera və Balet Teatrımızda işləməyə başladım. Artıq üç ildir ki, teatrda çalışıram və neçə tamaşada əsas partiyaları ifa etmişəm.

*– Bildiyim qədər, sizin bir arzunuzun da gerçəkləşməsi faktı yaradıcılıq bioqrafiyanıza düşüb…*

– Pandemiyadan sonra keçirilən ilk "Formula–1" yarışının açılışında qalib ölkənin qalib əsgəri kimi himnimizi oxudum. Uşaqlıqdan bir arzum var idi ki, çox böyük auditoriyanın qarşısında Azərbaycanın Himnini ifa edim. Formula yarışını da canlı yayımda az qala bütün dünya izləyirdi.

*– Gələk Vokalçıların Bülbül adına IX Beynəlxalq Müsabiqəsinə və sizin qələbənizə…*

– Əvvəllər də vokal müsabiqələrində iştirak etmişəm. Bülbül adına müsabiqədə qazandığım I mükafat (Atəş Qarayev həm də müsabiqənin "Ən yaxşı tenoru" dliplomuna layiq görülüb – müəl.) mənim hələlik ən önəmli və böyük qələbəmdir. Ötən il Qazaxıstanda keçirilən Bibigül Tulegenova adına müsabiqədə II yeri tutmuşdum. İndi otuz yaşın içindəyəm, yaşım imkan verdikcə (adətən vokal müsabiqələrində son yaş həddi 32, bəzən isə 35 yaş təyin edilir – müəl.) digər vokal yarışmalarında iştirak etməyi düşünürəm. Yarışmağı, daha çox da öz-özümlə yarışmağı sevirəm. İnsan özözünə qalib gələndə daha yaxşı insan, daha bacarıqlı sənətkar olur.

*– Atəş, sizin səsinizi bir neçə dəfə dinləmişəm. Şuşada Bülbül müsabiqəsinin finalında Koroğlunun ariyasını orkestrin müşayiəti ilə ifa etməyinizə leysan imkan vermədi, amma deyim ki, akapella çıxış etməyiniz də maraqlı oldu. Sadəcə, bir incə məqam var: Azərbaycan operasevəri tenorun ifasında "Koroğlu" operasından Koroğlunun, "Sevil" operasından Balaşın*



*ariyasını bəyəndisə, o tenorun tamaşaçısı olacaq.*

– Fikrət Əmirovun "Sevil" operasında Balaşın partiyasını tamaşada ifa etmişəm. Deyilənə görə, pis olmayıb. Koroğluya gəlincə, yəqin ki, gözləmək lazım olacaq. "Koroğlu" operası elə monumental tamaşadır ki, onu yalnız öz səhnəmizdə oynaya bilərik. Yəqin ki, bu da bina təmirdən çıxandan sonraya qalacaq. Hələliksə, bu mövsümdə C.Verdinin "Traviata" operasında Alfred partiyasındakı debütümün həyəcanını yaşadım.

***

Bu gün dünya, xüsusən də Avropa səhnələrində Azərbaycan vokal məktəbinin yetirmələrinin səsi tez-tez eşidilir. İnanmaq istərdik ki, yaxın illərdə Atəş Qarayevin də səsi həmin səslərin arasında eşidiləcək. Onun gələcək uğurlarını nə qədər arzulasaq da, bir istəyimiz var: təki biz də Atəşin səsinə həsrət qalmayaq.

**Gülcahan Mirməmməd**

# Siz də deyin: toya gələn oynasın…

## "Fiqaronun toyu"na az qalıb…



əvvəli səh. 1-də

Məlumat üçün deyim ki, əsərə bizim səhnədə ilk müraciət 1940-cı ildə Akademik Milli Dram Teatrında olub. Cəfər Cabbarlının tərcümə etdiyi pyesə Məcid Zeynalov quruluş verib. Nümunədə Mustafa Mərdanov, Fatma Qədri, Mirzəağa Əliyev, Məmmədəli Vəlixanlı, Rza Darablı kimi aktyorlar rol alıblar. Amma möhtəşəm səhnə və musiqi tərtibatı ilə hazırlanan tamaşa repertuarda cəmi bir il qala bilib.

Dünya səhnələrində pyes və onun taleyi ilə bağlı axtarış edəndə başqa maraqlı bir məqam da ortaya çıxdı. Sən demə, pyes əvvəlcə qadağan olunur. Hətta operanın müəllifi Motsart olsa belə, zamanında elə də "bəhbəh"lə qarşılanmır.

Amma bütün bunlara rəğmən mövzu və qəhrəmanlar köhnəlmir ki, köhnəlmir. Əksinə, görkəmləri, sir-sifətləri dəyişsə də, xislətləri, istək və arzuları olduğu kimi qalıb. Yox, məncə, bir az da əndazəsini aşıb, sərhədlərini keçib və kürsülü damlardan sosial şəbəkələrə... gedib çıxıb.

Pyesin nüvəsində duyğuların azad, səmimi ifadəsi və bütün maneələrin saf məhəbbətin qarşısında gücsüzlüyünə çəhrayı buludlar üzərində "yaşayan" bir uşaq inamı var. Saf sevgi, az qala onunla həmyaşıd qısqanclıq, qibtə, rəqabət, hiylə, qadın məkri, fitnə-fəsad və başqa min cür intriqaların dolaşdığı münasibətlərin sevgi qarşısında acizliyinə yepyekə bir eyhamın vurulduğu əsərin tək qələbəsi romantizmdir həm də.

Əsərdə konflikt çox sadə bir məqam üzərindən keçidlə başlayır. Daha doğrusu, sadə göründüyü qədər fitnə dolu təəssüratdan sonra: qulluqçu Fiqaro evin xadiməsi Süzanna ilə evlənəcəyindən xoşbəxtdir. Budur, bütün əzablar bitir, həsrət vüsala yetir. O, sevdiyi qızla evlənir. Qraf Almaviva da əsl xeyirxahdır. Sadiq qulluqçularını mükafatlandırmağa belə hazırdır. Ən azı Fiqaro, sadəlövh gənc belə zənn edir. Cütlük üçün otaq ayıran sahibinə təşəkkürdən yorulmur. Hətta sahibinin bu səxavətindən çaşır da. Amma ondan fərqli olaraq, çoxbilmiş sevgilisi Süzanna bu fədakarlığın arxasındakı əsl niyyəti yaxşı bilir. Qrafın ona olan vurğunluğunu və tamah salmasını nişanlısına açıb deyir. Qraf elə toy gecəsindəcə gənc qıza sahib olmağı planlaşdırır. Amma gənclərin tökdüyü tədbir bəhrə verir və sonda ənənəvi finala sevinirik: xeyir şər üzərində qələbə çalır.

Əsər yazıldığı dövrün zadəganlığı, varlı təbəqəsi ilə sadə, kasıb insanların münasibətlərinə, daha doğrusu, qarşıdurmasına eyham vursa da, bu sürətli konfliktlər fonunda mütləq bir inam, əzmkarlıq da hakimdir. Rejissor əsərdən irəli gələn ideya axınına məhz bu məqamdan sonra ictimaiyyət arasında az qala əzbər bildiyimiz replikaları ilə məşhur simaları sintez etməklə (tamaşaya baxan hər kəs onları tanıyacaq) məzəli, ironik yanaşma sərgiləyir.

"Xahiş edirəm, qızlar, başımızı tərpətmirik, əlimizi tərpətmirik, çiynimizi oynatmırıq. Hərəkətsiz qalırıq. Axı arxadakı sizin kim olduğunuzu, hansınızın danışdığını bilməməlidir" nidası ilə daldığım dərin xəyaldan ayıldım. Kəmalə Müzəffər "Oldu, oldu" deyib gülümsəyir. Tərəf-müqabilinə göz-qaş edib, "ayaq" verəndən sonra yenidən həmin hissəni təkrarlayır.

Məşq boyu səhnədə Manaf Dadaşov, zalda da Rasim Cəfər – yəni Qraf Almavivalar da durmadan köməkləşməyə cəhd etdilər. İnadla mizan müzakirəsi edən, etirazlarını səsli-səssiz bildirən, könülsüz M.Dadaşov, ondan fərqli olaraq, dinamizmini və obrazına nüfuzunu nümayişkaranə göstərən Bəhram Əliheydər (zalda onun qədər əziyyət çəkən Sənan Kazımlını da unutmadım) tennis topu kimi yorulmadan atılıb-düşürdü.

Səhnə geyiminə təzəcə uyuşan Aydan Həsənzadə Süzanna kimi uğurlu seçimdir və zərifliyini bədən dili ilə rahat ifadə edir. Ümumiyyətlə, bu gənc aktrisa səhnəyə yaraşmaqla yanaşı, həm də öyrənməyə meyillidir. Hiss olunur, tərəf-müqabillərinin oyununu daha dəqiq izləyir. Yalnız öz replikaları, öz "çıxış-giriş-ləri" üzərində ilişib qalmır.

Rejissorun "Hüseyn" harayından sonra çəlimsiz gənc Hüseyn Bayramov başılovlu "Mənim yerimdir" sualına cavab tapmadan səhnəyə atıldı.

Musiqi tərtibatçısı, rejissor, rejissor assistenti, qısası, hər kəs sonuncu raunduna çıxan idmançılar sayağı dişlərini sıxıb davam etdilər. Ta, "fasilə" komandası eşidilənədək. Bu minvalla mehriban, səmimi və zəhmətkeş heyət nahar fasiləsinə getdi. Fürsət bu fürsət deyib toy sahibini söhbətə tutdum.

Tamaşanın maraqlı olacağına əminliyini bildirən Əməkdar artist Nicat Kazimov davan edir: "Bilirsiniz, ağır, ciddi tamaşalarla bərabər, tamaşaçı həm də komediya görmək istəyir. Bildiyim qədərilə bu əsər 40-cı illərdə "Azdrama"da qoyulub və çox az müddət repertuarda qalıb. Bir də ötənlərdə ADMİU-da kurs tamaşası kimi oynanılıb. Amma bütün dünyada bu əsər həddindən artıq məşhur əsərdir. Dünyanın ən öndə gedən teatrlarının repertuarında bu komediya oynanılır və sevə-sevə tamaşaçılar tərəfindən izlənilir. Mən əsəri Cabbarlı tərcüməsi əsasında yenidən, dövrümüzün dil, səhnə danışığı üslubuna görə uyğunlaşdırdım. Xeyli də ixtisar etdim. 156 səhifəlik pyesi 56 səhifəyə salmışıq. Məşqlər getdikcə yenə də az-maz sözlər üzərində ixtisarlar olunur. Özünüz də izlədiyiniz kimi əsər müasirdir və biz də ona hazırda bütün cəmiyyətlərə xas çağdaş problemləri daha qabarıq nüfuz etdirməyə çalışmışıq".



Quruluş müəllifi deyir ki, belə klassik tamaşalar, xüsusən komediya əsərləri bütün teatrlara lazımdır: "Teatrın repertuarını gözdən keçirəndə gördük ki, bizim repertuarda komediya aclığı var. Odur ki, düşünüb-daşındıqdan sonra bu əsəri seçdik. Gördüyünüz kimi, gərgin məşq prosesindəyik. Arada başqa tamaşalar, dövlət tədbirləri oldu. Tam heyətlə, demək olar ki, hər gün məşqdəyik. Odur ki, iyunun 29 və 30-da sizləri "Fiqaronun toyu"na – premyeraya dəvət edirəm".

Rejissor tamaşada iştirak edən aktyorlar haqda da məlumat verdi: "Tamaşada teatrımızın əksər aktyorları rol alıb. Fiqaro rolunu Bəhram Əliheydər və Mirsənan Kazımlı ifa edirlər, yəni iki heyətdir. Süzanna rolunda Aydan Həsənzadə, Qraf Almaviva rolunda Manaf Dadaşov, Əməkdar artist Rasim Cəfər, Qrafinya rolunda Əməkdar artist Kəmalə Müzəffər, Zülfiyyə Alhüseynova, Marselina rolunda Sevinc Rzayeva, Təhminə Məmmədova, Bartolo rolunda Əməkdar artist Elnur Hüseynov, Əməkdar artist İlham Əsədov, Bazilio rolunda Ramil Məmmədov iştirak edirlər. Bundan əlavə, Ceyhun Məmmədov, Elşən Şıxəliyev, Anar Seyfullayev, Anar Səfiyev, Aydın Dəmirov, Tahir İsmayılov, əsas rollardan biri olan Kerubino rolunun ifaçıları Nurlan Süleymanlı və Hüseyn Bayramov və digərləri tamaşada yer alıblar.

Onu da qeyd edim ki, Süzanna rolunun ikinci heyətdə ifası üçün Akademik Milli Dram Teatrından İlahə Həsənovanı da dəvət etmişik. Ümid edirəm ki, tamaşaçılar çoxdandır belə komediya görmürlər deyə sevə-sevə bu tamaşaya gəlib baxacaqlar".

***

Məşq zamanı müşahidə etdiyim ən yaxşı nüans sözsüz ki, hərəkət çoxluğu oldu. Tamaşanı buffonada üslubunda qoyan və heyətini onun tələblərinə uyğunlaşdıran rejissor inanır ki, tamaşaçılar bu işi də maraqla qarşılayacaqlar.

Tamaşanın quruluşçu rəssamı Mustafa Mustafayev, musiqi tərtibatçısı Zaur Rəşidov, rəqslərin quruluşçusu Əməkdar artist Nailə Məmmədzadədir.

Sonda onu da qeyd edim ki, tamaşada V.A.Motsart və C.Rossininin musiqisindən sintezdə istifadə olunub. Vokal hissələri Akademik Opera və Balet Teatrının solisti, istedadlı bariton Mahir Tağızadə səsləndirir. Ariyanın mətni dilimizə tərcümə olunduğundan bunu da rejissorun yenilik cəhdi saymaq olar.

**Həmidə Nizamiqızı**

# "Çiçəklənən Şuşa" – rəsmlərdəki nisgil və sevinc mesajları

Azərbaycan Rəssamlar İttifaqının (ARİ) Vəcihə Səmədova adına sərgi salonu yenə rənglərin yay əhvalına bürünüb. Bir müddətdir ki, burada, demək olar ki, hər həftə rəssamlarımızın fərdi sərgiləri təqdim olunur. Hər sərginin öz rəng dünyası var. İyunun 12-də tanınmış rəssam, Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi tarix üzrə fəlsəfə doktoru Səyyar Əliyevin "Çiçəklənən Şuşa" adlı sərgisinin də. ARİ və Şuşa Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə gerçəkləşən sərgi müəllifin 75 illik yubileyinə həsr olunub.

Açılış mərasimində ARİ-nin katibi Xalq rəssamı Ağaəli İbrahimov rəssamın yaradıcılığından söz açıb, sərgidə yer alan portret və mənzərə janrlarında əsərlərin Vətənə sevgidən yoğurulduğunu deyib. Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev, Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) kafedra müdiri Yeganə Cəlilova çıxışlarında əslən Şuşadan olan rəssamın bu əsərlərində nisgillə sevinci bir araya gətirdiyini, əsərlərini böyük zövq və yüksək ustalıqla yaratdığını bildiriblər.

***

Səyyar Əliyevlə sərgilərdə, tədbirlərdə tez-tez rastlaşıram. Təvazökar, hər kəsə diqqət və qayğı ilə yanaşdığının şahidiyəm. Həm də onun uzun illər necə yurd nisgili ilə yaşadığını bilirəm. Bu gün isə o, yurdu işğaldan azad edilmiş, qalib ölkənin vətəndaşı kimi daha qürurlu görünür...

Səyyar Əliyev 1949-cu ildə Ağcabədi rayonunun Xocavənd kəndində doğulub. Orta məktəbi Şuşada və Ağcabədidə oxuyub.





ADPU-nun Şuşa və Ağcabədi filiallarında müəllim işləyib. 1994-cü ildən ADPU-nun Təsviri incəsənət və onun tədrisi texnologiyası kafedrasında müəllim vəzifəsində çalışır.

Sərginin açılışında iştirak edə bilməsəm də, sonradan ekspozisiyanı gəzmək imkanım oldu. Təbiət mövzulu, abstrakt üslublu əsərlərdə biz rəssamın əvvəlki sərgilərindən fərqli olaraq, ağrı-acı hiss etmirik. Məlumdur ki, müəllifin əsərlərinin çoxu Qarabağ savaşına həsr olunub. Uşaqlıq və gənclik illərini əsrarəngiz Qarabağ torpağında keçirən Səyyar Əliyevin rəssamlıq üzrə xüsusi təhsili olmasa da, onun əsərlərində hiss və duyğuların ifadəli təcəssümünün, Vətənə sevgisinin şahidi oluruq. Sərgidə təqdim olunan əsərlərdə təbiətin gözoxşayan mənzərələri, qədim Şuşa və hər ləçəyində məxsusi gözəllik daşıyan xarıbülbülün sevincini görürük.

"Çiçəklənən Şuşa" müəllifin sayca 7-ci fərdi sərgisidir və Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilib. İyunun 18-dək davam edən sərgidə neorealistik və abstrakt üslubda əsərlər yer alıb. Ekspozisiyanı izlədikcə bu qənaətə gəlirsən ki, rəssam öz fikir və duyğularını daha çox mənzərə janrı ilə tamaşaçıya ötürmək istəyir. "Qarabağ mənzərəsi", "Cıdır düzünün həsrəti" və digər əsərləri seyr etdikcə düşünürsən ki, hər tablo sanki insanı xəyalən bir anlıq Şuşaya, Qarabağın gözəlliklərini seyr etməyə aparır. Mənzərə, natürmort, süjetli tabloların hər biri rəssamın həm də həyata, dünyaya baxışı, rənglərə münasibətini əks etdirir. Kətan üzərində rənglərin uğurlu harmoniyası var. Rəssamın meyvələrə olan münasibəti də cəlbedicidir.

Səyyar Əliyev həm də tarixçi-alimdir. Bəlkə də, bu səbəbdən fırça onu şanlı keçmişimiz və vətənpərvərlik mövzusunda orijinal sənət əsərləri ərsəyə gətirməyə sövq edir...

**Lalə Azəri**

“Vətən fədailəri”

# 1630 metr yüksəklikdə şəhidlik

“Vətən fədailəri” rubrikamızda Azərbaycan Ordusu tərəfindən 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağda həyata keçirilən lokal xarakterli antiterror əməliyyatı zamanı ölkəmizin suverenliyi uğrunda canını və qanını əsirgəməyən şəhidlərimiz haqqında məlumat verməyə davam edirik. Bu dəfə şəhid Ceyhun Sadiqovu xatırlayacağıq.



Ceyhun Niyaməddin oğlu Sadiqov 2002-ci il avqustun 26-da İmişli rayonunun Şahverdili kəndində anadan olub. Bakı şəhərindəki Cahangir Cahangirov adına 4 nömrəli tam orta məktəbi bitirib.

İki bacının tək qardaşı olan Ceyhun uşaq yaşlarından mərdliyi və yardımsevərliyi ilə seçilirdi. Orta məktəbi bitirdikdən sonra Vətən qarşısında əsgəri borcunu yerinə yetirməyə yollanır. Hərbi xidmətdən sonra ailəsinin, sevdiklərinin yanına qayıdır. Ceyhun ailəsi qədər doğma Vətənini də sevirdi. Vaxt gələcək, heç düşünmədən öz canını onun uğrunda fəda edəcəkdi...

Odur ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi əsgər libasını əynində daşımağa qərar verir. Onun da qismətində Vətən torpağının yağıdan təmizlənməsində iştirak etmək, yurdumuzu yırtıcı xislətli erməni separatizmindən təmizləmək vardı. Bir də ən uca zirvə olan şəhidlik mərtəbəsinə yüksəlmək.

2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağda həyata keçirilən antiterror əməliyyatında Ceyhun da əzm və iradə ilə döyüşlərdə iştirak edir, bir neçə yüksəkliyin erməni terrorçularından təmizlənməsində xüsusi qəhrəmanlıq göstərir. Xankəndi istiqamətindəki döyüşlərdə şəhidlik zirvəsinə ucalır. Bakı şəhərindəki II Fəxri xiyabanda torpağa tapşırılır.

Şəhidin hərbçi yoldaşı Mirzağa Hüseynov Ceyhunla bağlı xatirələrini dilə gətirir: “Mənim Ceyhunla ilk tanışlığım 2020-ci il noyabrın 15-i Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) seçimləri vaxtı olub. Elə gətirdi ki, Ceyhunla hərbi xidmət dövründə də yanaşı olduq, Vətən qarşısında borcumuzu birlikdə yerinə yetirdik. Bu yol nə qədər çətin olsa da, Ceyhun hər zaman mənə səbirli olmağı öyrətdi. Əsgərlik vaxtımız bitəndən sonra isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursuna daxil olduq. Kursun müddəti qısa olsa da, orada yaddaqalan və bir o qədər də çətin günlərimiz oldu”.

Mirzağa Hüseynov bildirir ki, Ceyhunun 21 yaşı olmasına baxmayaraq, həmişə yaşından böyük, təmkinli davranıb: “Ceyhunla birlikdə 2023-cü il sentyabrın 19-da Xankəndi istiqamətində antiterror əməliyyatına qoşulduq. Ceyhun bizə çox dəstək olurdu. Yaralananlara ilkin tibbi yardım göstərməyin qaydasını bizlərə başa salırdı. O həm də bizdə döyüşün uğurla başa çatacağına inam yaradırdı. Həmin gün gecə saatlarında Xankəndi-Xəlifəli yolu düşməndən təmizlənirdi. 1630 metr yüksəklikdəki düşmən postu azad edilərkən Ceyhun böyük şücaət göstərərək şəhadət şərbətini içdi. Allah Ceyhuna və bütün şəhidlərimizə rəhmət eləsin”.

Qeyd edək ki, Ceyhun Sadiqov ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda” medalı ilə təltif olunub.

Ruhu şad olsun.

**Nurəddin**

# “Milli mədəniyyətin oyaq vicdanı”

Səməd Behrəngi – 85

Ötən əsrin ikinci yarısında Güney Azərbaycan ədəbiyyatı xəzinəsini diqqətəlayiq əsərlərlə zənginləşdirən ədiblərimizdən biri də yazıçı, tərcüməçi və pedaqoq, publisist, folklorşünas Səməd Behrəngidir. Tanınmış ədibin bu il anadan olmasından 85 il ötür.



Səməd İzzət oğlu Behrəngi 24 iyun 1939-cu ildə Təbriz şəhərinin Çərəndab məhəlləsində dünyaya göz açıb. Hələ kiçik yaşlarında ikən atası iş, güzəran dalınca Şimali Azərbaycana – Bakıya üz tutur və bir daha geri dönmür.

Ata qayğısından məhrum olan Səməd ibtidai təhsilini şəhərdəki “Tərbiyyət” məktəbində alır. Sonra Təbriz Pedaqoji Texnikumunda təhsilini davam etdirir. Tələbəlik illərində “Xənde” (“Gülüş”) adlı həftəlik divar qəzeti buraxır. İlk qələm təcrübələrini bu dövrdə yazır. Əmək fəaliyyətinə Azərşəhr (Tufarqan) mahalının Mamağan, Gögan ibtidai məktəblərində müəllim kimi başlayır. Ancaq o, ali təhsil almaq istəyirdi. 1956-cı ildə Təbriz Universiteti Filologiya fakültəsinin ingilis dili şöbəsinə qəbul olunur. Təhsil aldığı dövrdə onda xalq yaradıcılığı nümunələrini toplamaq həvəsi yaranır. Dostu və həmkarı Behruz Dehqani ilə yaxın-uzaq yaşayış məntəqələrinə üz tutur. Ağsaqqal, ağbirçəklərdən Azərbaycan nağıllarını toplayırlar. O, nağılları fars dilinə tərcümə edir və birlikdə nəşrinə nail olurlar. Yazıçı folklor örnəklərinin araşdırılması ilə də məşğul olur.

Səməd Behrəngi eyni zamanda fars dilindən bədii nümunələri – Əhməd Şamlı, Füruğ Fərruxzad kimi müəlliflərin əsərlərini Azərbaycan türkcəsinə çevirərək dövri mətbuatda dərc etdirir.

Səməd Behrəngi yaradıcılığında uşaqlar ayrıca yer tutur. Əsərlərində əsasən uşaqlar və gənclərin dünyasına müraciət edib. Bədii nümunələrinin mövzusu, qaynağı isə zəngin Azərbaycan xalq ədəbiyyatıdır.

Səməd Behrəngi dərs dediyi kəndlərdə şagirdlərin sevimlisinə çevrilir, sakinlərin rəğbətini qazanır. Çünki ana dilimizin, milli adət-ənənələrimizin böyük təəssübkeşi və təbliğatçısı kimi tanınırdı. Onun bu təəssübkeşliyi, fədakarlığı siyasi rejimin diqqətindən kənarda qala bilməzdi. Ona görə də pedaqoq-yazar haqsız təqiblərə məruz qalır. “Parə-parə” kitabının çapına görə 6 ay müəllimlikdən uzaqlaşdırılır.

İlk hekayələri “Adət”, “Binam” 1959-cu ildə işıq üzü görür. Bundan sonra “Ulduz və qarğalar”, “Çuğundursatan oğlan”, “Balaca qara balıq” və s. hekayə və nağıllarını yazır. “Balaca qara balıq” hekayəsi oxucular tərəfindən böyük maraqla qarşılanır. Uşaqlar üçün yazdığı əsərlərdə daha çox sosial problemləri, cəmiyyətdəki haqsızlıqları qabartdığı üçün satışı və yayılmasına qadağa qoyulur. Gənc Səmədin bu əsərləri 1968-ci ildə İtaliyanın Bolonya şəhərində keçirilən Uşaq kitabları müsabiqəsinin qalibi olur, qızıl medala layiq görülür. Bundan sonra kitabları italyan, fransız, ingilis, türk dillərində nəşr edilir.

Təsadüfi deyil ki, Cənubi Azərbaycanda uşaq ədəbiyyatının inkişafında müstəsna xidmətlərinə görə həmkarları onu “Azərbaycan kəndlilərinin canlı dili”, “Milli mədəniyyətin oyaq vicdanı”, “Xalqa üz tutan”, “Səyyar müəllim” kimi səciyyələndirib, fəaliyyətini yüksək qiymətləndiriblər.

Səməd Behrəngi 31 avqust 1967-ci ildə Cənubi Azərbaycanın Xumarlı yaşayış məntəqəsi yaxınlığında, Araz çayı sahilində müəmmalı şəraitdə boğularaq qətlə yetirilib.

Tanınmış yazıçının ədəbi irsindən “Məhəbbət nağılı” adlı seçilmiş əsərləri Bakıda ilk dəfə 1987-ci ildə kütləvi tirajla çap olunub.

Ölümündən sonra Səməd Behrəngiyə xeyli sayda şeir həsr edilib. Həmin şeirlərin çoxuna tanınmış bəstəkarlar tərəfindən musiqi bəstələnib. Haqqında sənədli filmlər çəkilib.

Azərbaycan Yazıçılar Birliyi ilə Diaspora İş üzrə Dövlət Komitəsinin ortaq saytı litdiaspora.az ədəbi portalı tərəfindən 2014-cü ildə “Səməd Behrəngi ədəbi mükafatı” təsis edilib.

2019-cu ildə Azərbaycan Yazıçılar Birliyi və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Səməd Behrənginin 80 illik yubileyi geniş şəkildə qeyd olunub.

**Savalan Fərəcov**

# Ultrabənövşəyi işıqların altında muzey



Paytaxtımızda müxtəlif sahələri əhatə edən, mədəniyyət profilli olmasa da, əslində, tarixi-mədəni və elmi irs məkanı sayılan muzeylər haqqında oxuculara məlumat verməyə davam edirik. Bu yazıda “Farhouse” Neon sənət muzeyi haqqında söz açacağıq.

Neon sənət muzeyi Abşeron rayonunun Novxanı qəsəbəsində (Fidan küçəsi) yerləşir. Bu muzeyi digərlərindən fərqləndirən ən önəmli cəhət eksponatlarının neon boyalarla işlənməsidir. Biz muzeylərdə eksponatları gün işığı və ya elektrik lampalarının işığında seyr etməyə alışmışıq. Neon muzeyində isə gözəlliyə valeh olmaq üçün işıq yox, qaranlıq lazımdır. Neon sənəti neon boyasının ultrabənövşəyi işıq altında əksolunma effektinə əsaslanır. Bu sənətdə işıq illüziyası və 3D effektinin köməyi ilə neon boyası ilə çəkilən şəkillər canlandırılır. Ona görə də neon boyalar adi gün və ya elektrik işığında zəif görünür, ya da ümumiyyətlə, görünmür. Amma qaranlıq yaradıb, xüsusi ultrabənövşəyi işıq yandırmaq kifayətdir ki, paralel-mistik aləmə düşəsən...

## Qədim Çin təlimi və Laplandiyadakı işıqlar

Muzeyin giriş qapısı və divarları rəngarəng naxışlarla bəzədilib. Həyətdə Həzi Aslanov, Memar Əcəmi, İlyas Əfəndiyev və digər görkəmli şəxsiyyətlərimizin heykəlləri qoyulub.

Muzeyin yaradıcısı, nəqqaş, rəssam Fərid Ələkbərov bizi qarşılayır. Deyir ki, 2015-ci ildə muzeyin əsasını qoyub, 2022-ci ilin yanvarından ziyarətçiləri qəbul etməyə başlayıb. Muzey hazırlanarkən “fenşuy” fəlsəfəsindən (təbiətdə olan enerjini yaşadığımız mühitdə hərəkətə çevirmə texnologiyasını göstərən qədim Çin təlimi) istifadə olunub. Belə bir muzey ideyası onda Finlandiyanın Laplandiya bölgəsinə səfəri zamanı şimal işıqlarını görəndə yaranıb.

Muzey fasaddan interyerə qədər neon üslubda bəzədilmiş iki mərtəbədən ibarətdir. Buraya ev-muzeyi də demək olar. Çünki muzeyin yaradıcısı Fərid Ələkbərov özü də bu evdə yaşayır.

## “Enerji otağı”

Bələdçimiz Mədinə Cahangirova ilə birlikdə muzeyi dolaşmağa başlayırıq. Əvvəlcə muzeyin “Enerji otağı”na daxil oluruq. Bələdçimiz qeyd edir ki, otağın bu cür adlandırılması heç də təsadüfi deyil. Otaqda qadın obrazları üstünlük təşkil edir. Həmçinin burada yapon heroqlifləri var ki, bu da insanlara daha çox müsbət enerji vermək məqsədilə yaradılıb.





Müsahibim vurğulayır ki, Fərid Ələkbərov özü rəssam ailəsində doğulub. Atası Kamal Ələkbərov Xalq rəssamıdır. Muzeyin həyətində gördüyümüz heykəllər də Kamal Ələkbərov tərəfindən hazırlanıb. “Enerji otağı”nda rəssamın atasının gipsdən ürək formasında hazırladığı heykəl də nümayiş olunur. K.Ələkbərov ürəyin içərisində öz həyat yoldaşının üzünü təsvir edib. Bu əsər ziyarətçilərin ən çox bəyəndiyi eksponatlardan biridir.

## Fosforlu fon

Muzeyin mətbəx otağındayıq. Otağa daxil olan kimi döşəmədəki xalça formasında işlənən rəsmlər diqqətimizi çəkir. Şkafların üzəri və mətbəxdə olan bütün əşyalar isə neon boyalarla bəzədilib. Otaqda fosforlu fon da var. Fonda ziyarətçilər öz əllərinin və siluetlərinin formasını çıxara bilərlər. Biz də bu fürsətdən yararlanırıq.

Birinci mərtəbənin daha bir otağı – uşaq guşəsindəyik. Burada müxtəlif kompozisiyalar nümayiş olunur. Venera, Merkuri, Mars planetləri, Günəş və ulduz təsvirləri ultrabənövşəyi işıq altında olduqca füsunkar görünür. Bu mənzərəni izləyərkən insan bir anlıq özünü sanki səmada hiss edir.

## Psixoloji test

İndi isə öz psixoloji vəziyyətimizi test etməyə gedirik. “Psixoloji otaq”. Muzeyin növbəti otağı belə adlanır. Burada da çoxlu maraqlı təsvirlər yer alır. Bunlardan biri də “Ozon dəliyi”dir ki, əsərə adi işıqda baxdıqda Yaponiyanın bayrağını görürük. Ən diqqətçəkən isə “Limonlar” əsəridir. Otağın psixoloji otaq adlandırılmasının sirri də məhz bu əsərdədir. Çünki əsər bir növ psixoloji test xarakteri daşıyır. Əsərə baxan insanlar orada hərəkət görürlərsə, bu onların yorğun və əsəbi olduqlarını göstərir, limonların düzülüşünü sabit vəziyyətdə görürlərsə, sinir sistemlərinin daha sakit olduğu qənaətinə gəlirlər. Əsərə tamaşa edərkən limonların hərəkətli olduğunu görürük. Deməki, bir qədər yorğunluğumuz var...

## 300-dən çox eksponat

Muzeyin qalereya adlandırılan və zirzəmi hissədə yerləşən otağına daxil oluruq. Bu otaq, bir növ, sənət emalatxanasını xatırladır. Ziyarətçilərə satış üçün neon və fosforla boyanmış müxtəlif aksesuarlar təqdim olunur.

Təbiət otağında isə rəssamın bir-birindən maraqlı əl işləri nümayiş olunur.

Bələdçimiz bildirir ki, muzeydə 300-dən çox eksponat var. Onların sırasına yeniləri əlavə olunur. Məkanın cəlbediciliyini artırmaq üçün eksponatların yerləri tez-tez dəyişdirilir.

## Uşaqlar üçün ustad dərsləri

Muzeydə Fərid Ələkbərov tərəfindən orta məktəb şagirdləri və azyaşlılar üçün ustad dərsləri də təşkil olunur. Uşaqlar keramika, taxta və kətan üzərində rəsmlər çəkməyi öyrənirlər.

Bələdçimizdən muzeyə giriş qiymətini və iş saatlarını da öyrənirik. Mədinə xanım deyir ki, muzey bazar ertəsi istisna olmaqla hər gün ziyarətçilər üçün açıqdır. Böyüklər 8 manat, məktəblilər, tələbələr, həmçinin 5 nəfər və daha çox qruplar isə adama 6 manat ödəməklə muzeyi ziyarət edə bilərlər. Düzü, qiymətlər bizə bir az yüksək gəldi...

Amma muzeydən zəngin təəssüratla ayrılırıq. Məkandan bir qədər uzaqlaşsaq da, sanki ətrafımızda hər şey neon boyasına bürünüb...

**N.Məmmədli**

Pressfakt

# İllər öncə qəzetlər nədən yazırdı?

Milli Kitabxananın dövri mətbuat arxivindən (18)

Mətbuat xronikasından növbəti seçmələr 66 il öncəyə, 1958-ci ilin iyununa aiddir. Sovet Azərbaycanının aparıcı nəşri – “Kommunist” qəzetindən üç nümunədə ədəbiyyatla musiqi, teatr və uşaqların istirahəti var. Yazılarda dövrün orfoqrafiyası saxlanılıb...

## “Poeziyada və mahnılarda komsomolun tərənnümü”

Azərbaycan dövlət filarmoniyasının səyyar mühazirə bürosu tərəfindən hazırlanan konsert-mühazirə seriyası “Poeziyada və mahnılarda komsomolun tərənnümü” adlanır. Lenin komsomolunun 40 illiyinə həsr edilən bu seriyaya iki mövzu daxil edilmişdir. “İlk komsomolçular” adlanan birinci mövzu Vətəndaş müharibəsində gənclərin iştirakını və ilk beşilliklərin tikintilərdə onların fədakar əməyini əks etdirir. “Fədakar komsomolçular” adlanan ikinci mövzu Böyük Vətən müharibəsi dövrünü və müharibədən sonrakı illəri əhatə edir.

S.M.Kirov adına Mərkəzi mədəniyyət və istirahət parkında “İlk komsomolçular” mövzusunda birinci konsert olmuşdur.

Gənclərin VI Ümumdünya festivalının laureatı – Azərbaycan dövlət filarmoniyasının simli kvarteti və solistləri, habelə Azərbaycan dövlət operasının solistləri və estrada artistləri çıxış etmişlər. Onlar komsomola və gənclərə həsr olunmuş mahnı və şeirləri ifa etmişlər.

Dzerjinski adına mədəniyyət parkında, Stalin adına mədəniyyət sarayında və başqa yerlərdə də komsomola həsr olunmuş konsert-mühazirələr keçiriləcəkdir.

## Gənclər teatrının yeni tamaşası

Maksim Qorki adına gənc tamaşaçılar teatrı öz yeni əsərini – qocaman dramaturq Abdulla Şaiq tərəfindən yazılmış “Bir saat xəlifəlik” pyesini göstərmişdir. Bu pyesin əsasını Bağdad xəlifəsi Harun ər-Rəşid və onun qardaşı Bəhlul Danəndə haqqında ərəb əfsanəsi təşkil edir.

Tamaşanın quruluşu Azərbaycan SSR əməkdar incəsənət xadimi Z.Nemətovundur. Bəhlul Danəndə rolunda Azərbaycan SSR xalq artisti Əliağa Ağayev, Harun ər-Rəşid rolunda artist Yusif Vəliyev çıxış edirlər.

## “Düşərgəmiz gözəldir”

Pirşağıda, Xəzərin mavi sularından azca aralı, yaşıl ağaclar arasında yerləşən maarif, ali məktəb, elmi müəssisə işçiləri həmkarlar ittifaqının yay pioner düşərgəsi doğrudan da gözəl və səfalı yerdədir. Burada hər şey pionerlərin yay istirahətini şən keçirmək üçündür.

Budur, hər cür avadanlıqla təmin edilmiş yataq otaqlarında uşaqlar şirin yuxudadırlar. Səhər yavaş-yavaş açılır. Düşərgədə hökm sürən sükutu “Qalxın, həyatın sizə bəxş etdiyi gözəlliklərdən istifadə edin!” – deyə çalınan şeypurun ahəngdar səsi pozur...

Oğlanlar və qızlar sanki bütün gecəni bu səsi gözləyirmiş kimi tez ayağa qalxır, geyinir, yuyunur, yeyir, oxuyur, rəqs edir, düşərgədə onların rahatlığı üçün yaradılmış bütün imkanlardan istifadə edirlər.

Pioner düşərgəsində 300-ə qədər oğlan və qız dincəlir. Burada respublikamızın Əli Bayramlı, Ağsu, Saatlı rayonlarının məktəblərindən gəlmiş qonaqlar da vardır. Onlar bir yerdə gəzir, köhnə dostlar kimi bir-birindən ayrılmırlar.

Düşərgədə olan basketbol, voleybol, futbol meydançaları məktəblilərin ixtiyarına verilmişdir.

Düşərgənin kitabxanası pionerlərin ən çox sevdikləri yerlərdən biridir. Burada müxtəlif adda maraqlı kitablar vardır. Məktəblilər bu kitabları ağac altında qoyulmuş stullarda oturub oxumağı daha çox sevirlər.

Pionerlərin sevdikləri yerlərdən biri də düşərgənin həyətyanı sahəsidir. Burada kələm, pomidor, günəbaxan, qarğıdalı, habelə müxtəlif çiçəklər əkilmişdir.




Gəncə təbiətçilər dərnəyinin üzvləri həyətyanı sahəyə böyük qayğı ilə qulluq edirlər.

Məktəblilər düşərgədə olan domino, dama, şahmat oyunlarına da böyük həvəs göstərirlər. Stolüstü tennisin ətrafı isə həmişə uşaqlarla dolu olur.

Düşərgənin axşamları xüsusilə maraqlı keçir. Qarmonun ahəngdar sədaları altında uşaqlar mahnı oxuyur, rəqs edir və müxtəlif maraqlı əyləncələrlə məşğul olurlar.

Yay aylarını düşərgədə keçirən məktəbliləri hələ çoxlu fərəhli günlər, xoş əyləncələr və maraqlı işlər gözləyir.

*“Kommunist” qəzeti, 10 iyun 1958-ci il*

# Minalanmış ərazilər: müharibəyə uzaqdan baxmaq...



*"Bu, ilk müharibə deyil, bundan qabaq da neçə müharibə olub. Son müharibə başa çatan gün bir tərəfdə məğlublar, bir tərəfdə qaliblər vardı. Məğlubların yanındakı xalq da acından ölürdü, qaliblərin yanındakı xalq da…" – Bertold Brext.*

Əlbəttə, müharibəyə uzaqdan baxmaq müşkül məsələdir. Bəşəriyyət heç vaxt belə bir səadətə nail olmayıb. Hər daşın altından bir döyüş tarixçəsinin çıxdığı dünyamızda buna ancaq teatr zalında nail olmağın mümkünlüyünü Şəki Dövlət Dram Teatrının səhnəsində "Kuraj ana və övladları" tamaşasına baxarkən daha dərindən hiss etdim.

Amma bu sadəcə olaraq, bir təsəllidir…

Əsərin müəllifi Bertold Brext məhz belə amalla yazıb-yaradır və mübarizə aparırdı: ərsəyə gətirdiyi saysız-hesabsız tamaşaların nümayişindən sonra tamaşaçının hiss və düşüncələrini, təəssüf və həyəcanını, göz yaşı və qəzəbini elə həmin zaldaca qoyub getməsi ilə qətiyyən barışmırdı. Onun fikrincə, teatr bu deyildi, tamaşaçı zalı bəlkə də qəribə bir daxili səssizliklə tərk etsə belə, şahidi olduğu hadisələrin, ötürülən mesajların və səsləndirilən açıq və ya çoxqatlı çağırışların təsirini sonrakı gündəlik həyatında daima beynində dolandırmalı, götür-qoy etməli, düşünməli, narahat olmalı və bir fikrə gəlməlidir. Bertold Brexti boş yerə "epik teatrın banisi" adlandırmırlar…

Şübhəsiz, tamaşa, səhnə, rejissor və aktyorluq bacarığı buna nail olubsa…

***

Hər dəfə Şəkidə olanda ilk ziyarətinə getdiyim insanlar teatrdakı dostlar olurlar. Birincisi, qısa müddət (iki il) bu kollektivin üzvü olmuşam, ikincisi, burada hiss etdiyim yaradıcı ab-havanı heç yerdə hiss etməmişəm, üçüncüsü, həmişə can atdığım, bezmədiyim, qaçmağa tələsmədiyim yerdir. Bir dəfə bu teatrla bağlı bir yazımda qapının dəstəyinə toxunmuşdum. Teatrda işləyənlər üçün nəzərdə tutulmuş qapının dəstəyinə. Onu hər dəfə eyni həyəcanla açdığımı ifadə etmişdim, çünki o qapıdan içəri girər-girməz birbaşa başqa dünyaya daxil olursan. Dəstək bir qədər laxlamışdı, gərək, qapını açmağın yolunu biləydin. Mən isə bunu bir qədər romantikləşdirmişdim. Həmin yazımdan sonra teatrın ovaxtkı direktoru Namiq Qaffarov romantikamı ciddi qəbul edib dəstəyi dərhal düzəltdirmişdi. Dəhlizdə salamlaşıb bunu zarafatla diqqətimə çatdıranda gülümsəmişdim…

Həmin qapıdan axırıncı dəfə eyni həyəcan və əminliklə keçən payız keçib dostlarla görüşmüş, xeyli söhbət etmiş, sonra da "Ezop" tamaşasına baxmışdım. Həmin vaxt Şəkidə peşəkar teatrın yaranmasının 145 illik yubileyinə həsr olunacaq "Kuraj ana və övladları" tamaşasının məşqləri başlanmışdı. Tamaşaya quruluş verən teatrın baş rejissoru Əməkdar incəsənət xadimi Mirbala Səlimliylə bu barədə danışanda öz-özümə söz vermişdim ki, harda olsam, mütləq gəlib baxacağam. Lalə xanımdan (ədəbi-dram hissə rəhbəri) tez-tez xəbər alırdım, may ayının əvvəli ilk baxış olacağını öyrənəndə: "Həmin gün çatmasam da sonrakı ilk tamaşada orada olacağam", – demişdim.

***

Qəribədir ki, insan bəzən əbədiyaşarlığı üçün məhz nifrətlə yanaşıb mübarizə apardığı çirkinliklərə borclu qalır…

Bertol Brext, necə deyərlər, özünü dərk edəndən müharibə əleyhdarı kimi çıxış etməyə başlamışdı. Onun həyat qayəsini sosial ədalətsizliyə və müharibəyə qarşı çıxış adlandırmaq mümkündür. Bu həmçinin həyatının ən böyük başağrısı idi. Yazdığı saysız-hesabsız şeirlərə, ssenarilərə, səhnə əsərlərinə, məqalələrinə, tamaşalarına və filmlərinə görə ömrü-günü məşəqqətlər içində keçirdi. Təhsilini yarımçıq qoymalı, ölkəsini tərk etməli, uzun illər qorxu və təzyiq altında yaşamalı, müxtəlif yerləri dolaşmalı olmuşdu. Keçdiyi yolu sürgün adlandırmaq mümkündür. 1933-cü ildə Almaniyanı tərk etməyindən iki il sonra vətəndaşlıqdan çıxarılmış və kitabları küçəyə tökülüb yandırılmışdı. Sığındığı "azadlıq ölkəsi" Amerikada yazdığı mətnlər və fikirlərinə görə ifadəyə çağırıldıqdan bircə gün sonra yenidən Avropaya qaça bilmiş, müxtəlif ölkələrdə yaşamış, bölünmüş vətənimə, o da Sovetlərin əlində qalan Şərqi Almaniyaya, bir də 1948-ci ildə qayıtmış, burada da xeyli işlər görmüş və səkkiz il sonra da vəfat etmişdi. Taleyin ironiyasına baxın ki, bu ölümdən əvvəl vaxt tapıb onu "Stalin sülh mükafatı" ilə cəzalandırmışdılar və bu yazıçıya qarşı bu gün də səngiməkbilməyən hücumların əsasını təşkil edir…

Bertold Brext faşizmlə mübarizəyə qalxmışdı. Kimisə göyləərə qaldırıb, kimisə vəhşiləşdirmək fikrindən tamamilə uzaq idi. Onun üçün müharibənin bir üzü vardı: İblisanə əxlaqsız üzü. O bu üzün bəzək-düzək verilib gözəlləşdirilməsinin də əleyhinə idi, haqlı-haqsız davasında kiminsə qəhrəmanlaşdırılmasının da. Məhz buna görədir ki, vətənində yandırılan və sonradan yazılıb çap olunmuş əsərləri dünyanın qırxdan çox dilinə tərcümə olunaraq hələ də ümumiliklə bəşəriyyəti, insanlığı hədələyən qorxunc oyunlarla mübarizədə öz layiqli yerini qoruyub saxlamaqdadır.

***

Yarıqaranlıq səhnə. Orduya əsgər yığan iki nəfər: Rekrutçu, feldfebel. Bir qədər sonra öz ticarət furqonuyla daxil olacaq Kuraj ana və övladları: iki oğlan və bir qız. Gedən danışıqlar, deyilən sözlər, tonu yüksəlib alçalan səslər; ab-hava, geyimlər, dekorasiya – müəllif bizi hər nə qədər müharibələr tarixinin bir mərhələsinə, 1624-cü ilə, Otuzillik müharibənin (1618–1648) düz ortasına aparsa da, ilk ştrixlərdəncə müharibəyə uzaqdan ümumi planda baxmaqla bağlı xəbərdarlıq gecikmir. Bu xəbərdarlığı almaqda isə tamaşaçı individual haqqa sahibdir.

Foyedə söhbətləşəndə Rəşadət müəllim (quruluş hissə müdiri) mənə tamaşaya bir az arxa sıralardan baxmağı məsləhət görmüşdü.

Qəribədir, zalda ayrılmış yerdə əyləşməyə gecikdim, oğlumu gözləyirdim. İşıqlar sönəndən sonra digər tamaşaçıların qarşısından yerimə keçməyi doğru hesab etmədim, elə girişə yaxın əyləşdik. Səhnəni nə yaxşı ki, sözün əsl mənasında, uzaqdan izləməli oldum.

Sonra günlərlə beynimdə ancaq bu fikri dolandırdım: müharibəni uzaqdan izləmək, müharibəni uzaqdan izləmək…



Brextin taleyində müharibəni uzaqdan izləmək deyilən heç nəyə yer yoxdur, amma eyni zamanda məqsədi bizə mənzərəni uzaqdan, bütün xırdalıqları, gizlinləri, bütün pərdəarxası hiylələri ilə aydın göstərməkdir. Bəlkə buna görədir ki, nə uduzan haqqında danışır, nə udan. Nə qələbə qazanılır, nə məğlubiyyət baş verir. Necə deyərlər, müharibə "Dünyanın ən keskin rəngini – qanı / Bahalı tabloya çevirməkdədir / Kətan – masalara sərilməkdədir / Sümüklər – ələ növ çərçivələrdir…".

Tamaşaya baxa-baxa fikirləşirdim ki, hər şey necə yerli-yerində "çərçivələnib", tamaşaçının qarşısına çıxarılan "tablo" dünyanın ən keskin rəngini, hətta onun qoxusunu, onun dadını – qanı necə amansız keskinliklə üstümüzə sıçradır, bizi diksindirir, o anda hisslərimizi soyuqqanlı məcraya yönəldib (Brextin vacib hesab etdiyi kimi), sonra ruhumuzu narahat edəcək şəkildə üz-üzə qoyur. Lalə Məmmədin Kuraj anası, Xanlar Həşimzadənin keşişi, Xəyal Salahovun hərbi rəisi, Rəhim Qocayevin aşpazı, Pərviz İsmayılovun feldfebet-protestantı, Nərmin Abbasovanın İvettası… – səhnədə dəfələrlə və ya bir necə dəqiqəlik görünüb itən qısa rolların ifaçıları da daxil olmaqla sanki yumruğunu qaldırıb dünyanı xəbərdar edir: budur, müharibənin üzü və astarı; budur, müharibənin məqsədi və nəticəsi; budur, müharibənin amansızlığı və nifrəti bütün çılpaqlığı ilə gözlərini sizə, insanlara zilləyib bağırır, siz isə elə bilirsiniz, hər şeyə ancaq uzaqdan tamaşa edirsiniz. Bir fikirləşin, neçənizin qəlbində müharibə yarası var? Neçənizin ruhu müharibə izləri daşıyır? Fikirləşin: sizlərdən kiməsə nəsillərdən bəri müharibəsiz bir ömür yaşamaq müyəssər olubmu?

Niyə? Nəyin xətrinə?

Bizlərin taleyi Kuraj ana və övladlarının taleyindən nə qədər uzaq ola, nə qədər fərqlənə bilər axı?

Niyə döyüşürük, nəyin xətrinə döyüşürük?

Arabir elə tamaşanı izləyə-izləyə dünyanın ən amansız və yanıqlı iki sualı qarşısında başımızı aşağı salırıq və bir anda səhnəyə iki tərəfdən skelet maskalı iki ifaçı çıxır:

Baxma ki, bu adamlar elə hey deyinəcək,

Bu dava bundan belə yüz il davam edəcək…

Yüz il? Min il? On min il?...

***

Quruluşçu rejissor əsəri olduğu kimi səhnələşdirmək fikrini rədd edərək, əslində, ideyanı (bunu müəllifin barışmaz ideyası kimi də qəbul edə bilərsiniz, rejissorun tamaşasının nümunəsində dünyanı öz-özü ilə üzləşdirmək ideyası kimi də) canlandırmaq məqsədi qoyub və deyərdim ki, buna tamamilə nail olub. Eyni aktyorları, əsərin dəyişməz səhnələrində eyni adlar altında müxtəlif müharibələrin döyüş meydanlarında təqdim etməklə sənətin missiyasını ön plana çıxardıb. Yəqin, son səhnədə tamaşaçıları XXI əsrin ümumiləşdirilmiş hərbi formalı əsgərləri ilə qarşılaşdıran rejissorun hansı fikri ötürmək istədiyi gün kimi aydındır. Zamanın, yerin, səbəbin və nəticələrin heç bir əhəmiyyəti yoxdur, müharibə övladlarımızı Kuraj ananın övladlarının nümunəsində əlimizdən almağa davam edir...

"Sənətin ali məqsədi" ifadəsi bir qədər dəbdəbəli səslənsə də, elə yerlər var, həqiqətən, adi söz olmaqdan çıxıb ideyaya çevrilir, şüara çevrilir, əzmə çevrilir, etiraza çevrilir…

Müharibəyə bu cür "uzaqdan baxmaq", həqiqətən, çox çətindir, amma sənət hər şeyə qadir olduğunu bir daha göstərir…

***

Mənim ruhum yoxdur, amma oduna ehtiyacım var… – övladlarını çörək ağacı hesab etdiyi müharibədə (müharibələrdə) itirmiş (itirməyə davam edən) Kuraj ananın sözləridir…

Tamaşadan sonra oturub təəssüratımızı bölüşürdük. Dekorasiya, geyimlər, aksesuarlar, musiqi, sözsüz səhnələr, rəssam işi, işıqlandırma, tamaşaya qədərki proseslər, məşqlər… – bir sözlə, Şəki teatrında eyni diqqətlə yanaşılan bütün xırdalıqlar da daxil olmaqla hər şey barədə danışmışdıq. Birdən:

– Kuraj ana bütün laqeydliyi və hissizliyi, sərtliyi və ticari xarakteri ilə dünyanı simvolizə etmirmi? – deyə sual verdim. – Çoxdan təslim olub, şərlə çoxdan barışıb, onun üçün fərqi yoxdur…

Mirbala müəllim bir az təəccübləndi, fikrə getdi:

– Maraqlı fikirdir, dərindən nəzər salanda, həqiqətən, elədir, Kuraj ananı insan əzablarının kütləşdirdiyi, ya da kütləşdirdiyi təsəvvürü formalaşmış dünya ilə müqayisə etmək ağlabatan görünür…

Sükut çökdü. Fikirləşirdim ki, teatr, həqiqətən, həqiqətin ən az oynanılb, ən böyük çılpaqlığı ilə çatdırıldığı yerdir. Səhnəyə çıxan aktyor və aktrisalardan hər birinin oynadığı rolla az əvvəl müharibə əleyhinə mübarizənin bir parçasına çevrildiyinin canlı şahidi olmuşdum, lakin Arzu Mustafayevanın Katrini mənə çox təsir etmişdi. Körpəni ovutmağa çalışdığı, çiçəklərlə oynadığı, müharibənin ortasında geyim-keçimlə nazlanmağa macal tapdığı, ən çox da diz çöküb lal dilində dua etdiyi səhnələrə adi yanaşmaq mümkün deyildi. Tamaşanın sonlarına doğru şəhər əhalisini xəbərdar etmək üçün dama çıxıb təbil çaldığı və öldürüldüyü səhnədə elə bir ustalıq nümayiş etdirmişdi ki, mən bir anlıq onun hər şeyi unudub özünü, həqiqətən, Katrin hiss etdiyinə, dünyanı ayıltmaq üçün həyəcan təbili çaldığına, son nəfəsdə buna nail olduğuna inanmışdım:

– Katrin isə mələkdir…

– Bəli, belə də demək olar…

Görəsən, Bertold Brext mələklərə inanırdımı?...

**Hədiyyə Şəfaqət**

## "Məhəmməd Füzulinin bədii-fəlsəfi irsinin kitabxanalarda təbliği"

### Metodik vəsait

*Bu il dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin (1494–1556) anadan olmasının 530 ili tamam olur. Ölkə başçısının müvafiq sərəncamı ilə dahi şairin yubileyi dövlət və beynəlxalq miqyasda qeyd edilir.*

Yubiley münasibətilə Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən "Məhəmməd Füzulinin bədii-fəlsəfi irsinin kitabxanalarda təbliği" adlı metodik vəsait hazırlanıb.

Kitabxanadan bildirilib ki, vəsaitdə filologiya elmləri doktoru Elnarə Akimovanın müəllifi olduğu "Heydər Əliyevin Füzuli mücadiləsi – "Sorun kim, bu nə sevdadır…" adlı məqalə, kitabxanalarda Füzuli irsinin təbliği istiqamətində görüləcək işlər barədə metodik tövsiyələr, "Əlavələr" bölməsində dahi şairin Milli Kitabxananın fondunda olan əsərlərindən, əsərlərinə çəkilmiş miniatürlərdən və dahi şairə həsr edilmiş şeirlərdən nümunələr yer alıb.

## Xatirə təqvimi

**19 – 23 iyun**

### Azərbaycan

**19 iyun 1900** – Xalq artisti, görkəmli teatr və kino aktyoru Möhsün Sadıq oğlu Sənani (Cəfərov; 1900 – 11.2.1981) Tiflisdə doğulub. Tiflisdəki Azərbaycan teatrında çıxış edib. 1921-ci ildə Bakıya gələrək Akademik Dram Teatrında çalışıb. "O olmasın, bu olsun", "Sehrli xalat", "Dağlarda döyüş" və s. filmlərdə çəkilib.

**19 iyun 1933** – Əməkdar memar Avrora Əbdüləziz qızı Salamova (1933–1986) anadan olub.

**19 iyun 1968** – Əməkdar mədəniyyət işçisi, rejissor, prodüser Oqtay Vidadi oğlu Əliyev (1968 – 22.3.2023) İrəvan şəhərində anadan olub.

**19 iyun 1978** – Əməkdar artist İbrahim Məcnun oğlu Qaradağlı (1907–1978) vəfat edib. Ağdaş teatrında aktyor və rejissor kimi fəaliyyət göstərib.

**20 iyun 1898** – Xalq artisti Əli Mirzə oğlu Qurbanov (1898 – 14.10.1962) Tiflisdə anadan olub. Səhnə fəaliyyətinə burada başlayıb, 1925-ci ildə Bakıya gələrək Akademik Dram Teatrında çalışıb. "Qızmar günəş altında", "Bir qalanın sirri" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**20 iyun 1914** – Əməkdar mədəniyyət işçisi, aşıq Əmrah Paşa oğlu Gülməmmədov (1914–1987) Marneuli rayonunun Araplı kəndində doğulub.

**20 iyun 1915** – Xalq artisti Süleyman Ağababa oğlu Ələsgərov (1915 – 10.12.1998) Bakıda doğulub. Gənc Tamaşaçılar Teatrında çalışıb. "Bizim Cəbiş müəllim", "Bəxtiyar", "Babamızın babasının babası" və s. filmlərdə çəkilib.

**20 iyun 1921** – Bəstəkar, Xalq artisti Cahangir Şirgəşt oğlu Cahangirov (1921 – 25.3.1992) Bakının Balaxanı kəndində doğulub. "Arazın o tayında" vokal-simfonik poeması, "Füzuli", "Nəsimi" kantataları, "Azad", "Xanəndənin taleyi" operaları, mahnıların müəllifidir. "Koroğlu", "Yenilməz batalyon", "Dəli Kür" filmlərinə musiqi yazıb.

**20 iyun 1921** – Əməkdar artist, tanınmış tarzən, pedaqoq Firidun Yusif oğlu Ələkbərov (1921 – 9.11.2021) Gəncədə anadan olub.

**20 iyun 1922** – Tanınmış aktyor, rejissor Salman Yusif oğlu Dadaşov (1922 – 20.9.1986) anadan olub. Filmlərdə ("Onun böyük ürəyi") çəkilib, Sumqayıt teatrının direktoru olub.

**20 iyun 1924** – Biblioqraf, ədəbiyyatşünas, Azərbaycan mətbuat tarixinin tədqiqatçısı, professor Nazim Fərrux oğlu Axundov (1924–1994) Şuşa şəhərində anadan olub.

**20 iyun 1936** – Tanınmış uşaq yazarı, şair-dramaturq Simax Barux oğlu Yuşvayev (Simax Şeyda; 1936 – 12.2.2024) Oğuz rayonunda doğulub. Dağ yəhudisidir, əsərlərini Azərbaycan dilində yazıb. Almaniyada vəfat edib.

**21 iyun 1794** – Tarixçi, şair, maarifçi Abbasqulu ağa Bakıxanov (1794–1847) Bakının Əmircan kəndində anadan olub. 1819–1845-ci illərdə çar Rusiyasının Tiflisdəki Qafqaz Baş Hərbi İdarəsində tərcüməçi işləyib, Türkmənçay müqaviləsinin (1828) imzalanmasında iştirak edib. "Gülüstani-İrəm" əsəri ilə Azərbaycan tarixşünaslığının əsasını qoyub. "Qüdsi" təxəllüsü ilə şeirlər yazıb.

**21 iyun 1933** – Xalq artisti, xanəndə Tələt Məmmədağa oğlu Qasımov (1933 – 28.7.2013) Bakıda doğulub. Azərbaycan Dövlət Filarmoniyası və Dövlət Konsert Birliyinin solisti olub.

**21 iyun 1953** – Əməkdar incəsənət xadimi, sənətşünas, professor Leyla Camal qızı Axundzadə (1953 – 10.2.2010) anadan olub. Mədəniyyət və İncəsənət Universitetində kafedra müdiri, Mədəniyyət və Turizm Nazirliyində Təsviri və dekorativ sənət sektorunun müdiri işləyib.

**21 iyun 2022** – Musiqişünas, pedaqoq, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Bakı Musiqi Akademiyasının professoru Aida Nemət qızı Hüseynova (1964–2022) vəfat edib.

**22 iyun 1802** – Şərqşünas, maarifçi Mirzə Kazım bəy (Mirzə Məhəmməd Əli Hacı Qasım oğlu; 1802 – 27.11.1870) anadan olub. Peterburq Universitetini bitirib, 1853-cü ildə universitetdə açılan Şərqşünaslıq fakültəsinin dekanı təyin edilib. Rusiya Elmlər Akademiyasının ilk azərbaycanlı üzvü olub.

**22 iyun 1897** – Azərbaycan professional vokal məktəbinin banisi, SSRİ Xalq artisti Bülbül (Murtuza Məşədi Rza oğlu Məmmədov; 1897 – 26.9.1961) Şuşada doğulub. Milan Konservatoriyasını bitirib. Xalq mahnıları və romansların, operalarda ("Koroğlu", "Əsli və Kərəm") baş partiyaların unudulmaz ifaçısı olub. Azərbaycan Dövlət Konservatoriyasında xalq musiqisini öyrənən elmi-tədqiqat kabinetini yaradıb.

**22 iyun 1916** – Əməkdar artist, vokalçı Sona Əyyub qızı Mustafayeva (Bağırova; 1916–1999) Bakıda doğulub. Opera və Balet Teatrının solisti olub.

**22 iyun 1922** – Kinorejissor Rüfət İsmayıl oğlu Şabanov (1922–1998) Bakıda doğulub. "Gəmi saatının sirri", "Liftçi qız" və s. filmləri çəkib, "Azərbaycantelefilm"in baş rejissoru olub.

**22 iyun 1923** – Əməkdar artist Rəhilə Məmməd qızı Məlikova (Mustafayeva; 1923 – 11.12.1996) Bakıda doğulub. Gənc Tamaşaçılar Teatrının aktrisası olub, "Arşın mal alan" (1945) filmində Asya rolunu oynayıb.

**22 iyun 1924** – Yazıçı Cəlal Bərgüşad (Cəlal Novruz oğlu Cavadov; 1924 – 9.7.1996) Qubadlı rayonunun Qəzyan kəndində doğulub. Əsərləri: "Sıyrılmış qılınc", "Bozatın belində" və s.

**22 iyun 1942** – Bəstəkar, şair Bəhram Paşa oğlu Nəsibov (1942–1998) Füzuli rayonunun Aşağı Rəfədinli kəndində anadan olub. "Xatırla məni", "Deyin, hardadır?", "Səni qəmli görəndə" və s. populyar mahnıların müəllifidir.

**22 iyun 1947** – Şair Eldar Baxış (Eldar Baxış oğlu Ağayev; 1947 – 22.5.1996) Qubadlı rayonunun Diləli Müskanlı kəndində doğulub. Rus ədəbiyyatından tərcümələr edib.

**22 iyun 1955** – Tanınmış rəssam Vaqif Ucatay (Hüseynov Vaqif Hüseyn oğlu; 1955 – 20.12.2020) Şabran rayonunun Təkyə kəndində anadan olub.

**22 iyun 1994** – Xalq şairi, ədəbiyyatşünas alim, ictimai xadim Xəlil Rza Ulutürk (Xəlil Rza oğlu Xəlilov; 21.10.1932 – 1994) vəfat edib.

**23 iyun 1913** – Xalq şairi, tərcüməçi Nigar Xudadat bəy qızı Rəfibəyli (1913 – 9.7.1981) Gəncədə anadan olub. Lirik şeirləri ilə Azərbaycan poeziyasını zənginləşdirib, xarici dillərdən ədəbi nümunələri (A.Çexov – "Albalı bağı", E.Voyniç – "Ovod", A.Puşkin, M.Lermontov və b. şairlərin şeirləri) Azərbaycan dilinə çevirib.

**23 iyun 1923** – Ədəbiyyatşünas, şair, tərcüməçi Qasım Xansuvar oğlu Qasımzadə (1923 – 28.7.1993) Qubadlı rayonunun Xocamsaxlı kəndində anadan olub. "Ürək döyüntüləri", "Ədəbiyyatımız və mənəviyyatımız" və s. kitabların müəllifidir.

**23 iyun 1925** – Xalq artisti, ilk azərbaycanlı qadın – teatr rejissoru Gülcahan Şəuulla qızı Güləhmədova-Martınova (1925–2018) anadan olub. 30 ilə yaxın Dövlət Rus Dram Teatrında quruluşçu rejissor işləyib. Televiziya tamaşalarına quruluş verib.

### Dünya

**19 iyun 1924** – Belarus yazıçısı Vasil Bıkov (1924–2003) anadan olub. Əsərləri: "Ölülər ağrı hiss etmir", "Sübhədək yaşamalı" və s. Əsərləri əsasında filmlər çəkilib.

**20 iyun 1819** – Fransız bəstəkarı Jak Offenbax (Jacques Offenbach; 1819–1880) anadan olub. "Gözəl Yelena", "Paris həyatı", "Quldurlar" və s. operettaların müəllifidir.

**20 iyun 1932** – Rus şairi Robert Rojdestvenski (1932–1994) anadan olub. Əsərləri: "Rekviyem", "Otuzuncu əsrə məktub" (poemalar) və s.

**21 iyun 1905** – Fransız yazıçı-dramaturq, filosof, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1964) Jan-Pol Sartr (Jean-Paul Sartre; 1905–1980) anadan olub. Əsərləri: "Azadlıq yolları", "Qapalı qapılar arxasında", "Dəfn olunmamış ölülər" və s.

**21 iyun 1910** – Rus şairi Aleksandr Tvardovski (1910–1971) anadan olub. "Muraviya ölkəsi", "Vasili Tyorkin" və s. poemaların müəllifidir.

**22 iyun 1898** – Alman yazıçısı Erix Mariya Remark (Erich Maria Remarque – Erich Paul Remark; 1898-1970) anadan olub. Romanları: "Qərb cəbhəsində dəyişiklik yoxdur", "Zəfər tağı" və s.

**22 iyun 1906** – Amerika rejissoru, 4 dəfə "Oskar" mükafatçısı Billi Uayldər (Billy Wilder; 1906-2002) anadan olub.

**23 iyun 1824** – Alman bəstəkarı, dirijor Karl Reyneke (Carl Reinecke; 1824–1910) anadan olub.

**23 iyun 1889** – Rus şairəsi, yazıçı, ədəbiyyatşünas Anna Andreyevna Axmatova (Qorenko; 1889 – 5.3.1966) anadan olub.

**23 iyun 1901** – Türk yazıçısı Əhməd Hamdi Tanpınar (1901–1962) anadan olub. "Abdullah Əfəndinin yuxuları", "Aydakı qadın", "Ayna" və s. romanların müəllifidir.

**Hazırladı: V.Orxan**

№45 (2110)
21 iyun 2024
www.medeniyyet.az

# "Müxtəlifliyin gözəlliyi"

## Milli Xalça Muzeyində Monteneqro geyimlərinin sərgisi



Bakıda, Milli Xalça Muzeyində Monteneqro milli geyimlərinin sərgisi keçirilir. İyunun 13-də açılışı olan sərgi Monteneqro xalqının milli-mədəni özünəməxsusluğunu, həyat tərzini, etnik, dini xüsusiyyətlərini təcəssüm etdirir.

"Müxtəlifliyin gözəlliyi" adlı sərgi Azərbaycan Mədəniyyət Nazirliyi ilə Monteneqro Mədəniyyət və Media Nazirliyinin dəstəyi, Azərbaycan Milli Xalça Muzeyi və Monteneqro Milli Muzeyinin təşkilatçılığı ilə ərsəyə gəlib.

Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova bildirib ki, sərgidə Monteneqronun XIX–XX əsrlərə aid milli geyimləri nümayiş olunur. Ekspozisiyada Monteneqro Milli Muzeyi, Monteneqro Etnoqrafiya Muzeyi, Kral Nikola Muzeyi, Monteneqro Tarix Muzeyinin kolleksiyalarından seçilmiş 170-dən çox nümunə var.

Balkan yarımadasının ən kiçik dövləti (ərazisi 13,8 min kvadrat kilometr) olan Monteneqro zəngin ənənəvi mədəniyyətə malikdir və o, qədim Roma, Bizans, yunan, slavyan, eləcə də qismən türk-islam mədəni irsinin orqanik şəkildə birləşməsi nəticəsində formalaşıb. Adriatik dənizi hövzəsi, Aralıq dənizi hövzəsi və Şərq mədəniyyətinin elementləri əsrlər boyu Monteneqro geyimlərində birləşərək unikal mədəniyyətin yaranmasına səbəb olub.

Direktor onu da diqqətə çatdırıb ki, Azərbaycanla Monteneqro arasında diplomatik əlaqələr 2008-ci ildə (bu ölkə 2006-cı ildə Serbiya ilə ittifaqdan ayrılaraq tam müstəqilliyini elan edib – red.) qurulub. Monteneqronun ənənəvi mədəniyyətini nümayiş etdirən sərgi Azərbaycanda ilk dəfə təşkil olunur.

Mərasimdə çıxış edən Milli Məclisin deputatı, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov qeyd edib ki, eksponatlar seyr etdikcə iki xalq arasında zövq, düşüncə ortaqlığı, duyğu eyniliyini hiss edirik. Bu eksponatlar yalnız mədəniyyətin bir hissəsini nümayiş etdirmir, həm də Monteneqro xalqının milli-mənəvi zənginliyini paytaxtımızın sakinlərinə və qonaqlarına yaxından tanıdacaq.



Monteneqro Milli Muzeyinin direktoru, rəssam Yakşa Çalasan zəngin milli irslərinin bir hissəsini dost Azərbaycanda təqdim etməkdən məmnun olduqlarını deyib.

Monteneqro Tarix Muzeyinin direktoru Filip Kuzman çıxışı zamanı qeyd edib ki, ölkə ərazisində çoxlu sayda müxtəlif geyimlərə rast gəlmək təəccüblü deyil. Bildirib ki, mədəniyyət və ənənə xalqların və mədəniyyətlərin mənəvi-tarixi kimliyini birləşdirən ümumbəşəri bağlantıdır. Bu həm də bizə başqa və fərqli dünyanı daha yaxşı anlamağa imkan verən vasitədir.

Çıxışlardan sonra qonaqlar sərgi ilə tanış olublar.

Milli Xalça Muzeyində Monteneqro geyimlərinin sərgisi avqustun 31-dək ziyarət üçün açıq olacaq.

**Lalə**

# "Birlik ulduzları"nın builki laureatları kimlərdir?

MDB-də humanitar sahə üzrə əsas mükafat olan "Birlik ulduzları" bu il növbəti dəfə təqdim olunacaq. 2009-cu ildə MDB Humanitar Əməkdaşlıq Şurası və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu tərəfindən təsis edilən mükafat hər il humanitar sahədə dünya nailiyyətlərinin səviyyəsinə uyğun gələn işlərə və MDB ölkələrinin inkişafına töhfə verən ən mühüm nailiyyətlərə görə verilir.

"Birlik ulduzları" dövlətlərarası mükafatının verilməsi üzrə şura laureatları elan edib. Onların arasında Azərbaycanın Xalq rəssamı, Avropa Təbiət Elmləri Akademiyasının akademik Sakit Məmmədov da var.

Məlumata görə, bu il mükafata 7 ölkədən 11 namizədlə bağlı təqdimat olub. MDB ölkələrinin tanınmış mədəniyyət və təhsil xadimlərinin daxil olduğu münsiflər heyətinin qərarı ilə mükafatlar yeddi iddiaçıya verilib.

"Mədəniyyət və incəsənətdə müstəsna xidmətlərinə görə" nominasiyası üzrə "Birlik ulduzları" mükafatının qalibləri arasında Azərbaycanın Xalq rəssamı Sakit Məmmədovla bərabər, Qazaxıstan Milli Dram Teatrının aktyoru, Qazaxıstan Teatr Xadimləri İttifaqının sədri Xalq artisti Tunqışbay Camankulov və estrada müğənnisi, Özbəkistanın Xalq artisti Yıldız Usmanova da var.

"Elm və təhsil sahəsində görkəmli töhfələrə və nailiyyətlərə görə" nominasiyasında qaliblər Belarus Mədəniyyəti, Dili və Ədəbiyyatı Araşdırma Mərkəzinin müəllifləri komandası və Tacikistan Milli Universitetinin professoru, Rusiya Təbiət Elmləri Akademiyasının müxbir üzvü Davlat Solixzoda olub.

"Humanitar fəaliyyətə müstəsna töhfəsinə görə" nominasiyası üzrə mükafata fiqurlu konkisürmə üzrə üçqat Olimpiya çempionu, Ümumrusiya Məktəb İdmanları Federasiyasının prezidenti Əməkdar idman ustası İrina Rodnina və Qırğızıstanın Əməkdar mədəniyyət işçisi, Respublika İdman, Bədən Tərbiyəsi və Mədəniyyət Mərkəzinin direktor müavini Damira Alışbayeva layiq görülüb.

Ənənəvi olaraq "Birlik ulduzları" ilə bərabər, MDB ölkələri gəncləri üçün "Debütlərin birliyi" mükafatının laureatları da elan edilib. Laureatlar arasında Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının aktrisası, Əməkdar artist Mariya Dubovitskaya da var.

Mükafatların təqdimatı mərasimi sentyabrda MDB ölkələrinin Yaradıcı və elmi ziyalılarının Forumu çərçivəsində Ufada (Başqırdıstan, RF) olacaq.

# Bayden 500 min miqranta vətəndaşlıq verəcək

## Seçkidə dəstəyə ehtiyacı var



Prezident Co Baydenin yüz minlərlə qanunsuz miqranta ABŞ-də vətəndaşlıq hüququ vermək niyyətindədir.

Məlumata görə, Ağ Ev administrasiyası yaxın aylarda ABŞ vətəndaşlarının hüquqi statusu olmayan ərlərinin (arvadlarının) daimi yaşayış hüququ və ölkəni tərk edib qayıtmağa ehtiyac qalmadan vətəndaşlıq üçün müraciət etmələrinə icazə verəcək.

Co Baydenin qərarı təxminən 500 min nəfəri əhatə edəcək. Bu tədbir ABŞ-də miqrantların son onilliklərdə ən geniş federal müdafiəsi hesab edilir və ölkə daxilində və xaricdən qarşıdan gələn seçki prosesində hazırkı prezidentin xeyrinə işləyəcəyi ehtimal olunur.

Qeyd edək ki, bu yaxınlarda Co Baydenin cənub sərhədlərini bağlamaqla bağlı kəskin qərarı ölkədə geniş narazılığa səbəb olmuşdu.

# Türkiyə "mavi bayraq"lı çimərlik sayına görə üçüncülüyü qoruyur

Türkiyə sahillərin və sahil sularının təmizliyini göstərən "mavi bayraq" beynəlxalq ekoloji etiketli çimərliklərin sayına görə dünyada üçüncü yerdədir.

Türkiyənin Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişiklikləri Nazirliyinin məlumatına görə, hazırda ölkədə "mavi bayraqlı" 567 çimərlik fəaliyyət göstərir. Ölkə bu göstərici üzrə yalnız İspaniya və Yunanıstandan geri qalır.

Nazirliyin məlumatında qeyd edilir ki, 2002-ci ildə nüfuzlu ekoloji etiketə malik Türkiyə çimərliklərinin sayı cəmi 140 olub və sonrakı illərdə bu, davamlı olaraq artmağa başlayıb.

Çimərliklərin vəziyyətinin qiymətləndirilməsi beynəlxalq ekspertlər tərəfindən hər ilin may ayında aparılır. Çimərliklərdən əlavə, Türkiyədə 27 marina (kiçik qayıq və yaxtaların yan aldığı turistik liman) və 9 özəl yaxta beynəlxalq ekoloji "mavi bayraq" daşıyır.

Bundan əlavə, ölkədə fəaliyyət göstərən 1400 çimərlik, o cümlədən koordinatlar, yüksək dalğa riski və sahildən su dərinliyi haqqında məlumatlarla xüsusi olaraq yaradılan plaj.csb.gov.tr saytında tanış olmaq olar.

Qeyd edək ki, 2023-cü ildə də dünya üçüncüsü olan Türkiyədə "mavi bayraq"lı 551 çimərlik vardı. Ötən bir ildə onların sırasına daha 16-sı əlavə olunub.

"Mavi bayraq" reytinqi hər il çimərlik mövsümü ərəfəsində mənzil-qərargahı Kopenhagendə (Danimarka) yerləşən Ekoloji Təhsil Fondu (FEE) tərəfindən elan edilir. 2024-cü ilin statistikasına dair www.blueflag.global saytında yer alan məlumata görə, dünya üzrə 51 ölkədə ümumilikdə 5121 çimərlik, marina və yaxta "mavi bayraq" sahibidir.

İspaniya "mavi bayraq"lı 639 çimərlik (həmçinin 102 marina və 7 yaxta) ilə reytinqdə ilk sıradadır.



İkinci yerdə olan Yunanıstanda 625 çimərlik bu statusa malikdir. "Mavi bayraq"lı çimərlik sayına görə Türkiyədən sonra növbəti yerlərdə İtaliya (485), Fransa (398) və Portuqaliya (398) var. İlk onluğa Danimarka (142), İrlandiya (84), Meksika (78), Kipr (76) də daxildir. Avropanın kiçik ölkələrindən Monteneqronun Adriatik dənizi sahillərində 39 çimərliyi də reytinqdə yer alıb.

Maraqlıdır ki, şərq və qərbdən iki okeanla əhatələnən və min kilometrlərlə sahil zolağı olan ABŞ-də cəmi 2 çimərlik bu reytinqə düşüb. İldə cəmi 1-2 ay yay havası olan uçar şimaldakı İslandiyanın da reytinqdə (2 çimərlik) olması maraq doğurur.

FEE tərəfindən 1987-ci ildən verilən "Mavi bayraq" sertifikatı 4 meyar üzrə müəyyənləşir: suyun təmizliyi, ekologiyanın qorunması, təhlükəsizlik və istirahət edənlərin məlumatlandırılması. Mükafata layiq görülən çimərlikdə onun loqosu olan mavi bayraq dalğalanır. Bu, turist cəlb etmək üçün ən vacib göstəricilərdən biridir. Türkiyədə sözügedən proqram 1993-cü ildən tətbiq edilir.

Azərbaycanda çimərliklərdən hələ heç biri "mavi bayraq" almayıb. Ümid edək ki, yaxın vaxtlarda bizdə də çimərlik turizmində mövcud potensialdan daha səmərəli istifadə olunacaq və dünya standartlarında xidmətlər təklif ediləcək.

**V.Kamal**

# Tbilisidəki multikultural festivalda Azərbaycan guşəsi

Gürcüstanın paytaxtı Tbilisidə iyunun 17-də keçirilən multikultural festivalda Azərbaycan mədəniyyətini əks etdirən stend də təqdim olunub.



Tədbirdə Tbilisideki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi təmsil olunub. Muzeyin kolleksiyasından festival ərazisində qurduğu "Azərbaycan guşəsi"ndə Qarabağ və Borçalı xalçaları, milli musiqi alətləri, milli geyimlər nümayiş etdirilib.

Krtsanisi rayonunun İoseb Qrişaşvili adına parkın ərazisində gerçəkləşən festivalda Tbilisidə yaşayan bir çox xalqların nümayəndələri milli guşələr təşkil ediblər. Məktəblilər və peşəkar aktyorlar köhnə Tbilisi həyatini yeni teatrlaşdırılmış tamaşa ilə canlandırıblar.

Həmçinin burada məktəblilərin "Multikultural Tbilisi" mövzusunda çəkdikləri rəsmlər sərgilənib. Sərgi çərçivəsində maraqlı konsert proqramı da təşkil olunub.

# 52 dərəcə istidə Həcc ziyarəti

Səudiyyə Ərəbistanında Həcc ziyarəti zamanı ölən zəvvarların sayı 1000-i keçib. Xarici informasiya vasitələrinin məlumatlarına görə, ölənlərin təxminən yarısı Misirdən gələn zəvvarlardır. Məlumatlarda bildirilir ki, ölümlər isti səbəbindən baş verib.

Həmçinin 60 iordaniyalının vəfat etdiyi xəbər verilir. Bundan başqa, ölən zəvvarlar arasında İndoneziya, İran, Seneqal, Mərakeş və Tunis vətəndaşları da var. Rusiya mediasının məlumatına görə, Həcc ziyarətində bu ölkənin 4 vətəndaşı vəfat edib.

Bu günlərdə Məkkədə temperatur 52 dərəcəyə çatıb. Səudiyyə Ərəbistanının Səhiyyə Nazirliyi xəbərdarlıq etmişdi ki, havanın temperaturunun əhəmiyyətli dərəcədə artması bu il zəvvarlar üçün əsas problemlərdən biri olacaq.

Həcc ziyarətində 1,8 milyondan çox zəvvar iştirak edib. Bu rəqəm hava, quru və dəniz limanları vasitəsilə Səudiyyə Ərəbistanına daxil olan zəvvarları əhatə edir. Eyni zamanda xarici informasiya vasitələrində çoxlu sayda zəvvarın qeyri-leqal şəkildə ölkəyə daxil olduğu da bildirilir.

Bu il Həcc mövsümü iyunun 14-də başlayıb və ayın 19-dək davam edib.

# Tarixdə bu gün

## Olaylar, faktlar (19 – 23 iyun)



### Xronoqraf

**23 iyun** "Dövlət qulluqçularının peşə bayramı" günüdür. 2003-cü ildə BMT Baş Assambleyası tərəfindən təsis edilən gün Azərbaycanda da Prezident İlham Əliyevin 25 may 2006-cı il tarixli sərəncamı ilə qeyd edilir.

### 521 il əvvəl...

**21 iyun 1503-cü ildə** Şah İsmayılın başçılıq etdiyi Səfəvi qoşunları Almaqulağı (Həmədan yaxınlığında) döyüşündə Sultan Muradın başçılığı altında Ağqoyunlu ordusunu məğlub edib. 1500-cü ildə Ağqoyunlu dövləti ikiyə parçalandıqdan sonra onun bir qoluna Əlvənd Mirzə, ikinci qoluna Sultan Murad başçılıq edirdi. Səfəvi qoşunları 1501-ci ildə Şərur döyüşündə Əlvənd Mirzəni məğlub etmişdi. Ağqoyunlunun hər iki qolunun məhv edilməsi ilə Səfəvi dövlətinin güclənməsi başlandı.

### 411 il əvvəl...



**21 iyun 1613-cü ildə** Rusiyada Romanovlar sülaləsinin hakimiyyəti başlayıb. 1606-cı ildə başlayan qarışıqlıq və ixtilafdan sonra boyarlar gənc Mixail Romanovu çar seçiblər. Kremldəki Uspenski kilsəsində yeni çarın tacqoyma mərasimi keçirildi. Romanovlar sülaləsi 3 əsr hakimiyyətdə qaldı.

### 277 il əvvəl...

**20 iyun 1747-ci ildə** Nadir şah Əfşar (1688-1747) sui-qəsd nəticəsində öldürülüb. Nadir sonuncu Səfəvi hökmdarı III Şah Abbasın ordu komandanı olub. 1736-cı ildə III Şah Abbasın ölümündən sonra Suqovuşanda (Sabirabad rayonu) Azərbaycan bəylərinin qurultayını çağıraraq özünü şah elan edib. Nadir şah Səfəvilərdən sonra güclü dövlət qurmaq istəyirdi. Lakin onun Azərbaycanı İran taxtı ətrafında birləşdirmək niyyəti yerlərdə etiraz doğururdu. Orta Asiyanın bir hissəsini, Hindistanın şimalını ələ keçirərək qurduğu imperatorluq ölümündən sonra dağıldı.

### 104 il əvvəl...

**19 iyun 1920-ci ildə** Xalq Cümhuriyyətinin qurucularından Fətəli xan Xoyski Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirilib. Terror aktı nəticəsində Xəlil bəy Xasməmmədov (Cümhuriyyətin ədliyyə və daxili işlər naziri) də ağır yaralanıb.

***

**23 iyun 1920-ci ildə** Təbrizdə Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə Azərbaycan Milli Hökuməti qurulub. Xiyabaninin lideri olduğu Azərbaycan Demokrat Firqəsi həmin ilin aprelində üsyan nəticəsində Təbrizdə faktiki hakimiyyəti ələ almışdı. Milli hökumət 1920-ci ilin sentyabrında Şeyx Məhəmməd Xiyabaninin qətlə yetirilməsi ilə süqut etdi.

### 83 il əvvəl...



**22 iyun 1941-ci ildə** Almaniya qoşunları SSRİ üzərinə hücuma keçiblər, Böyük Vətən müharibəsi başlayıb. Hitlerin "Barbarossa" planına görə, müharibə 2-3 ay ərzində SSRİ-nin Uraladək ərazisinin (o cümlədən Bakının) tutulması ilə yekunlaşmalı idi. Amma müharibə 4 il sürdü və Berlində başa çatdı. Bu qələbə SSRİ-yə 30 milyona yaxın insanın itirilməsi hesabına başa gəldi.

### 63 il əvvəl...

**19 iyun 1961-ci ildə** Küveyt müstəqillik əldə edib. XVI əsrdən Osmanlı imperiyası tərkibində olan Küveyt 1899-cu ildə Britaniyanın protektoratlığına keçmişdi.

### 23 il əvvəl...

**21 iyun 2001-ci ildə** Prezident Heydər Əliyevin fərmanı ilə Azərbaycanda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1380
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641